

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azadlığa qovuşan Qubadlının Şəhər Günü




4

SƏS
№ 197 (7122)
25 oktyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Kazanda Prezident İlham Əliyevin Ermənistanın Baş naziri ilə görüşü olub




3

# Qərbin Gürcüstanı ALƏT ETMƏK NİYYƏTİ



5

## "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq"



12

## G7-BRİCS qarşıdurması?



6

## Şuşanı azadlığa qovuşduran dəmir iradə və siyasi güc



9

## İsti döşəmə sistemi: MƏNFİ VƏ MÜSBƏT TƏRƏFLƏRİ



10

## Bir nazirin monoloqu - PARODİYA



11

# Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə

## Prezident İlham Əliyev: "Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq"

”Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir”. Bu sözləri Azərbaycan Prezident İlham Əliyev Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşündə bildirib. Dövlətimizin başçısı Tatarıstan-Azərbaycan ikitərəfli formatının çox yaxşı olduğunu diqqətə çatdırıb. Əlbəttə ki, Azərbaycan Prezidentinin Tatarıstanın ali dövlət mükafatı ilə təltif olunması haqqında Fərmanın oxunması münasibətlərin yüksək olmasına əsaslanır. ”Tatarıstan Respublikası Rəisinin Fərmanı ilə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə Prezident İlham Əliyev ”Dostluq” ordeni ilə təltif olunur.”

Bunun həqiqətən də böyük sürpriz olduğunu bildirən dövlətimizin başçısı bu barədə təyyarə Kazana enəndə öyrəndiyini diqqətə çatdırıb: ”Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. Bütün Azərbaycan xalqı adından, şəxsən öz adımdan bir daha Sizə təşəkkür edirəm”

Qeyd edək ki, müstəqil Azərbaycanın Rusiya Federasiyasının bütün bölgələri ilə, eləcə də Tatarıstanla münasibətləri inkişaf etməkdədir. Hər iki dövləti tarixən səmimi dostluq münasibətləri bağlayır və tarix boyu qurulmuş əlaqələr bu gün də davam etməkdədir. Belə ki, çoxlu sayda azərbaycanlı Tatarıstanda, tatarlar isə Azərbaycanda yaşayır. Ölkəmizdə Tatarıstan Respublikasının Daimi Nümayəndəliyi, ”Tuqan Tel” Tatar Mədəniyyəti Cəmiyyəti, ”Yaşlek” Azərbaycan Tatar Gəncləri Mərkəzi, ”Tatarıstan” İctimai Birliyi və ”Ak Kalfak” Tatar Qadınları Cəmiyyətinin Bakı bölməsi fəaliyyət göstərir. İki respublika arasında iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalanıb. Bundan əlavə, hökumətlərarası komissiya yaradılıb. Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycana səfəri dostluq və qardaşlıq münasibətlərini özündə ehtiva edir.




### REGİONAL SƏVİYYƏDƏ CİDDİ TÖHFƏ

Məlumdur ki, Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov işğaldan azad olunan bəzi ərazilərimizdə olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında ”Avto Lizinq Azərbaycan” MMC-nin açılışında iştirak etmişdilər. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Rusiya və Azərbaycan birgə müəssisəsi olan ”Avto Lizinq Azərbaycan” MMC tərəfindən ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Azərbaycana səfəri çərçivəsində yenidən qurulan və sakinlərini qoynuna alan Ağalıda da olub. Səfərdə olan Tatarıstan Respublikasının Rəisi real mənzərənin şahidi olub. Bu səfər ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə regional səviyyədə də ciddi töhfədir.










Ardı Səh. 3

Əvvəli səh. 2

# Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə

**Prezident İlham Əliyev: "Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq"**

Oktyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Kazan şəhərində keçirilən XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında iştirak edib. Qeyd edək ki, hazırda 10 üzvü olan BRICS 2006-cı ildə yaradılıb. Builki BRICS Sammitinə 36 ölkədən və 6 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, o cümlədən 22 dövlət başçısı və BMT-nin Baş katibi Antonio Quterreş qatılıblar. BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri əlaqələndirən vahid geosiyasi bloka çevrilib, həmçinin dünya əhalisinin təxminən yarısını və qlobal iqtisadiyyatın 1/4-dən çoxunu təşkil edən nəhəng iqtisadi güc mərkəzinə çevrilib.

## "DÖRDİLLİK SƏDRLİK DÖVRÜNDƏ QOŞULMAMA HƏRƏKATI ÖZÜNÜN İNSTİTUSİONAL İNKİŞAFINDA BÖYÜK ADDIM ATIB"

XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı Azərbaycanın beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdır olduğunu bildirərək, bunun 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirildiyini diqqətə çatdırıb: "Dördillik sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir".

Qeyd edək ki, 4 il ərzində ölkəmizin BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu və əksər üzv dövlətlər tərəfindən nümunəvi sədrlik olaraq təqdir edilməkdədir. Təsadüfi deyil ki, Azərbaycanın sədrliyi dövründə əldə edilən uğurlar bütün üzv dövlətlər tərəfindən təqdir edilmiş və Azərbaycanın Hərəkata 3 il müddətinə nəzərdə tutulan sədrliyi yekdilliklə əlavə 1 il müddətinə artırıldı. Sədrlik dövründə Azərbaycan Hərəkatın beynəlxalq münasibətlər sistemindəki əvvəlki nüfuzunu bərpa etməyə yönəlmiş və heç bir beynəlxalq aktorla ziddiyyətə getmədən "Bandunq Prinsipləri"nin təşviqinə köklənmiş siyasət sərgiləyib. Sədrliyin böyük bir hissəsinin COVID-19 pandemiyasının yayılmasının intensiv dövrünə təsadüf etməsinə baxmayaraq, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüslər sayəsində mövcud çağırışlar yeni əməkdaşlıq imkanlarına çevrilib. Burada xüsusilə inkişaf etmiş ölkələrin "peyvənd millətçiliyi siyasəti" və inkişaf etməkdə olan ölkələrə qarşı ədalətsiz və biganə yanaşmasına son qoyulması üçün BMT Baş Assambleyası və İnsan Hüquqları Şurasında ölkəmiz tərəfindən mühüm qətnamələrin irəli sürülərək qəbul etdirilməsini qeyd etmək olar"

Azərbaycan həmçinin Hərəkatın təsisatlandırılması istiqamətində mühüm addımlar ataraq, ölkə başçısının təşəbbüslərinə uyğun olaraq Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsi və Gənclər Təşkilatını yaradıb. Sədrliyimiz dövründə həmçinin Qoşulmama Hərəkatına üzv dövlətlərin beyin mərkəzlərinin ilk iclası keçirilib, onların şəbəkələşməsi istiqamətində ilk addım atılıb.

Onu da bildirək ki, Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına tam hüquqlu üzv qəbul olunmuşdur. Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş zirvə görüşündə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. BMT-nin Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də Azərbaycanın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

## "ŞƏRQ-QƏRB" VƏ "ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZLƏRİ BİZİM ƏRAZİMİZDƏN KEÇİR"

Ölkəmiz hazırda Avrasiya məkanının mühüm logistik mərkəzlərindən biri kimi tanınaraq yeni təşəbbüslər irəli sürməkdə davam edir. Eyni zamanda, İpək Yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal iştirakçısı olan Azərbaycan gerçəkləşdirdiyi genişhəcmli layihələrin nəticəsi olaraq müxtəlif istiqamətlərə tranzit daşımaların səmərəli təşkilinə etibarlı təminat verir. "Öz coğrafi mövqeyindən istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri bizim ərazimizdən keçir. Bu nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, biz bu dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırırıq", - deyə Prezident bildirib.

## "COP29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİNƏ DAİR YEKDİL QƏRARI BİZİM SİYASƏTİMİZƏ HÖRMƏTİN VƏ DƏSTƏYİN PARLAQ SÜBUTUDUR"

Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürüdür. Əlbəttə ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Təbii ki, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir. İlk növbədə ölkəmizə gələn qonaqlar inkişafı öz gözləri ilə görmək imkanı qazanır, daha sonra isə bu haqda ətraflı məlumatlanırlar. Bu cür tədbirlər eyni zamanda ölkəmizin beynəlxalq imicinə də müsbət təsir edir. Azərbaycan artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. "Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının - COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik", - deyə Prezident bildirib.

Xatırladaq ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in ötən ilin dekabrın 11-də keçirilən plenar iclasında verilib. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir.

***Nəzakət ƏLƏDDİNQIZI***







# Kazanda Prezident İlham Əliyevin Ermənistanın Baş naziri ilə görüşü olub




***Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş olub.***

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ikitərəfli sülh gündəliyinin irəli aparılmasını, o cümlədən sülh sazişini, sərhədlərin delimitasiyası və demarkasiyasını, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün tez zamanda yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilib.

# Azadlığa qovuşan Qubadlının Şəhər Günü

**Prezident İlham Əliyev: "Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi"**




Müzəffər Azərbaycan Ordusu 2020-ci il oktyabrın 25-də Qubadlı şəhərini işğalçılardan azad edərək, üçrəngli bayrağımızı 30 ilə yaxın müddətdən sonra həmin ərazilərdə qürurla dalğalandırıb. Həmin tarixi hadisədən - Qubadlının işğaldan azad olunmasından dörd il ötür. Prezident İlham Əliyevin məlum Sərəncamana əsasən, oktyabrın 25-i "Qubadlı Şəhəri Günü" kimi təntənəli şəkildə qeyd edilir. "Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi", - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan şəhər, qəsəbə və kəndlərimiz azad edildi. Bu Zəfər tariximizin ən şanlı səhifəsidir. Tarixin yaşanılacaq zamanlarında Zəfər tariximiz şərəf tarixi olaraq vərəqlənəcəkdir. Müharibənin qızğın getdiyi günlərdə Zəfərimizə doğru irəliləyirdik. Demək olar ki, hər gün kənd, qəsəbə və şəhərlərin işğaldan azad olunması xəbərini eşidirdik. "Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır". Bu fikirləri Azərbaycan Prezident İlham Əliyev bildirmişdir. Zəngilan şəhərinin işğaldan azad olunması xəbərindən bir neçə gün sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımıza müjdə verərək. bir neçə kəndin, eləcə də Qubadlı şəhərinin işğaldan azad olunmasını bildirməsi artıq Zəfərimin yaxınlaşdığından xəbər verirdi: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!"

Uğurla davam edən döyüş əməliyyatı Azərbaycanın Zəfər tarixini yazdı. Azərbaycan ordusunun əzmi, əsgər adını şərəflə daşıyan oğullarımızın ermənilərə verdiyi dərs bu torpaqları işğaldan azad etdi. Biz onların qarşısında baş əyirik, onlarla qürurlanırıq. Cənab Prezident Qubadlının azad olunması ilə bağlı belə deyirdi: "Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən, Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər. Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi".

## "BİZ DÜŞMƏNİ TOPLAM 404 YÜK AVTOMOBİLİNDƏN MƏHRUM ETMİŞİK"

Artıq müharibənin başlamasından demək olar ki, bir ay ötürdü. Bir ay ərizində Ermənistanın məhv edilmiş və hərbi qənimət götürülmüş texnikası açıq-aydın döyüş meydanında Ermənistanın məğlubiyyətinin göstəricisi idi. "252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var. Görün nə qədər tank olub onlarda. Piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb - cəmi 79 ədəd. Müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə - 53-ü məhv edilib. 82 "Qrad" qurğusu məhv edilib. 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi, 1 "TOS" məhv edilib. Zenit-raket kompleksləri - 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", 1 "KRUQ", 2 "S-125" qurğusu məhv edilib. "S-300" ən bahalı qurğulardan biridir, 6"S-300" atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri - Elbrus, ikisi məhv edilib, "Toçka-Ulu Öndər" biri məhv edilib. Yük avtomobilləri - 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik" - deyə Cənab Prezident xalqa müraciətində diqqətə çatdırmışdır.

## "BİZ QUBADLI RAYONUNUN BÜTÜN KƏNDLƏRİNİ, O CÜMLƏDƏN QUBADLI ŞƏHƏRİNİ YENİDƏN QURACAĞIQ"

Qubadlı rayonu 25 oktyabr 2020-ci il tarixində düşmən qoşunlarında təmizləndi. Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, növbəti istiqamət Qubadlı rayonu idi. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu peşəkarlıq, fədakarlıq göstərdi. Məlumdur ki, ərazisi 802 kv.km olan Qubadlının 94 yaşayış məntəqəsi, o cümlədən, 1 şəhər və 93 kəndi var. 31 avqust 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. İşğal ərəfəsində isə əhali 30 minə qədər olub. İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edib. 2 üzümün ilkin emalı zavodu, 1 yağ-pendir zavodu, 1 asfalt zavodu, 1 inkubator-quşçuluq fabriki, 1 balıqyetişdirmə vətəgəsi, 1 daş karxanası, 1 mərmər sexi, Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun filialı və s. fəaliyyət göstərib. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə olub. Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib. Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib.

Ümumilikdə işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisəsi, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13 365 hektar meşə sahəsi işğal altında qalmışdı.

Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr işğal olunub. Erməni təcavüzü zamanı Qubadlı 238 şəhid verib, 146 nəfər əlil olub.

Artıq bu gün işğaldan azad olunan Qubadlıda yeni bir həyat başlanıb. "Qubadlı şəhəri demək olar ki, yerlə-yeksan edilib, bir salamat bina yoxdur", deyən Cənab Prezident sadəcə olaraq, erməni hərbçilərinin öz məqsədləri üçün bir neçə binadan istifadə etdiklərini bildirib: "Biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq". Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu əraziyə səfəri çərivəsində "Qubadlı" yarımstansiyasının açılışı olub. Xatırladaq ki, bu günə qədər Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl kimi ərazilərdən sonra Qubadlıda yeni yarımstansiya tikilib.

## "HƏKƏRİ ÇAYI NƏINKİ QUBADLININ, BÜTÜN AZƏRBAYCANIN, BİZİM BÖYÜK SƏRVƏTİMİZDİR"

Yaxın gələcəkdə Qubadlıda məktəblər, xəstəxanalar tikiləcək, yeni yaşayış binaları qubadlıların ixtiyarına veriləcək: "Sovet vaxtında daha çox fərdi evlər idi. Bir neçə beşmərtəbəli ev var idi. Bir-iki evin qalıqları qalıb. Ancaq Qubadlı şəhər kimi inkişaf etməlidir. Əlbəttə ki, düzgün planlaşdırma aparılarkən burada insanların rahat yaşaması üçün bütün şərait yaradılacaq. İqtisadi inkişafa gəldikdə, əlbəttə, rayon ictimaiyyəti də burada çox fəal iştirak etməlidir - həm bərpa işlərində, eyni zamanda, Qubadlının düzgün inkişaf konsepsiyasının işlənməsində". Rayonun böyük potensiala malik olduğunu qeyd edən Cənab Prezident buranın zəngin təbiəti, təbii sərvətləri olduğunu bildirib: "Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik. Ermənilər bizi məhrum etmişdi. Bu, böyük sərvətdir. Özü də indiki şəraitdə ki, su resursları dünyada gələcəkdə əsas yəni, yaşayış üçün əsas resurs kimi artıq tanınır. Ona görə düzgün planlaşdırma aparılmalıdır, iqtisadi inkişaf, hansı sahələr inkişaf edəcək".

Bildiyimiz kimi, Qubadlının Baş Planı əsasında genişmiqyaslı layihələr həyata keçirilir. Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır. Baş planın əsasında Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib.

## "QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİ NƏİNKİ AZƏRBAYCANIN, QAFQAZIN, DÜNYANIN ƏN GÖZƏL YERLƏRİNDƏN BİRİ OLACAQ"

Bu gün reallaşan layihələr Qubadlının işıqlı gələcəyindən xəbər verir. Bildiyimiz kimi, dövlət başçısının Qubadlıya səfəri çərçivəsində Xanlıq-Qubadlı yolunun təməli qoyulub. Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 7 metr olacaq. Bu yollar Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində tikilir. Dövlət başçısının tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaq. Yeni inşa olunan yollar işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.

Qubadlıda görülən işlərdən söz açarkən, əlbəttə ki, Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışını da qeyd etməliyik. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Azərbaycanın Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda, ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik", - deyə Azərbaycan Prezidenti bildirib.

***Zümrüd BAYRAMOVA***

## YAP Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib. SİA xəbər verir ki, başsağlığında bildirilib:

Qardaş Türkiyənin paytaxtı Ankara şəhərində yerləşən Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbərini böyük kədər hissi ilə qarşıladıq.Bu qəddar cinayətin arxasında dayanan və onu törədənləri şiddətlə qınayır, terroru lənətləyir, həlak olanların ailələrinə, yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını diləyirik.Gündən-günə güclənən, beynəlxalq aləmdə söz və nüfuz sahibi olan Türkiyə dövlətinə qarşı yönələn bütün xain planlar və təxribat cəhdləri iflasa məhkumdur. Biz hər zaman dost və qardaş Türkiyənin yanında olduğumuzu qətiyyətlə bildiririk.

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı***

# Qərbin Gürcüstanı ALƏT ETMƏK NİYYƏTİ



***Dəfələrlə şahidi olmuşuq ki, Qərb özünün maraqları naminə Cənubi Qafqazda hansısa qarışıqlıq, xaos yaratmaq üçün bütün imkanlarını səfərbər edib. Demokratiya adı altında regionun bir çox ölkələrində öz çirkin niyyətlərini həyata keçirmək ənənəsinə sadiq qalan Qərbin Gürcüstanı qarışdırmaq üçün "meydana" atıldığını indi görməmək mümkün deyil. Məhz Rusiyaya qarşı Gürcüstanı alət etmək niyyəti artıq tam çılpaqlığı ilə ortadadır.***

## Gürcüstanı məhz Rusiya ilə müharibəyə qızışdıran Qərb öz çirkin niyyətlərini reallaşdırmağa çalışır

Gürcüstanda seçkilər ərəfəsində Qərbin daha da "aktiv fəaliyyət" göstərməsi əbəs yerə və səbəbsiz deyil. Demokratiyadan ağız dolusu dəm vuran amerikalılar, avropalılar Gürcüstanın indiki hökumətinin xalqın iradəsinə uyğun və tam demokratik prosedurlara uyğun seçilməsini indi heç hesaba belə almaq istəmirlər. Əksinə, bu il 26 oktyabr tarixində keçiriləcək seçkilərdə demokratiyanın qələbəsini deyil, "öz istəklərinin", yəni, çirkin niyyətlərinin qələbəsini arzulayırlar. Təkcə arzulamırlar, hətta hazırlıq da görürlər. Daha dəqiq desək, Qərb özünün layihəsi olan müxalifətin seçkilərdə ədalətli şəkildə qalib gələ bilməyəcəyini yaxşı başa düşərək və nəzərə də alaraq, Gürcüstanda açıq şəkildə antikonstitusion çevriliş belə hazırlayır.

Ukraynanı hər vasitə ilə Rusiyaya qarşı müharibəyə sürükləyənlər indi də Gürcüstanı eyni şəkildə qızışdırmağa çalışırlar. Qərb indi də Gürcüstanı alət etmək niyyətindədir və bu niyyətini heç gizləmir də. Rusiya ilə müharibəyə başlamaq üçün Ukraynanı pulla, silahla, ümumiyyətlə, hər şeylə təmin edən Qərb indi də Gürcüstanı eyni şəkildə təmin etməyi belə planlaşdırır. Qarışıqlıq, xaos, çevriliş cəhdləri də məhz buna görədir. İndi təkcə ABŞ deyil, Fransa da Gürcüstanla bağlı eyni planlar barədə düşünür. Bəlkə də Ermənistanda hansısa oyunların nəticəsindən "narazı" qalan Fransa prezidenti Makron özü də Gürcüstanı həfəd seçib və həmin ölkəni alət kimi istifadə etmək niyyətindədir. Cənubi Qafqazda sabitliyi pozmaq üçün Fransa da Gürcüstanda öz çirkin niyyətlərini reallaşdırmağı planlayır.

## Gürcüstanı alət etməyə çalışanlar həmin ölkənin qarşılaşacağı məhdudiyyətləri nəzərə belə almırlar

İndi gürcülər başa düşməlidirlər ki, onları alət etməyə çalışanlar Gürcüstanın qarşılaşacağı məhdudiyyətləri nəzərə belə almırlar. Amma bu məhrumiyyətləri özləri yaxşıca ölçüb-biçməli, nəzərə almalıdırlar. Nəzərə almalıdırlar ki, müharibə olacağı təqdirdə onların saysız-hesabsız məğlubiyyətlərlə yanaşı, həm də böyük məğlubiyyət gözləyir. Rusiya ilə müharibənin başlamasının və bunun ardınca Gürcüstanın sürətli şəkildə və çox böyük itgilərlə başa gələ bilən məğlubiyyətinin nəyə gətirib çıxaracağını indidən bilmək heç də dərin zəka və uzaqgörənlik tələb etmir. İlk növbədə Gürcüstan ərazisindən keçən bütün tranzit kommunikasiyalarının kəsiləcəyini gürcülər bilməlidirlər. Bilməlidirlər ki, müharibənin başlaması ilə bu gün dinamik inkişaf edən Orta Dəhlizdən də məhrum olmalı olarlar.

Təbii ki, gözlənilən belə bir məhrumiyyət də, müharibə olacağı təqdirdə gürcülər üçün qaçılmaz olacaq məğlubiyyət də Qərb üçün heç bir mahiyyət kəsb etmir. Ən azından ukraynalıların başına gələnlər böyük bir dərs olmalıdır. Gürcülər özləri də görürlər və çox yaxşı başa düşürlər ki, itirən ukraynalılar oldu, amerikalılar və avropalılar yox. Başa düşürlər ki, məhrumiyyətlər də, itgilər də Qərbin yox, məhz Ukraynanın oldu. Dağıdılan şəhərlər də Ukraynanın şəhərləri oldu, döyüşən və həlak olanlar da ukraynalılar oldu. Heç bir avropalı və ya amerikalı Ukraynada döyüşmədi, həlak olmadı. Amerikanın, yaxud Avropanın hansısa şəhəri hücuma və dağıntılara məruz qalmadı. Deməli, Rusiya ilə Qərbin münasibətlərinin yaxşı olmadığına görə, ambisiyalara görə Ukrayna alət edildi. İndi də Gürcüstanı alət etmək niyyəti ortadadır və bu məsələdə də maraqlı tərəf Qərb özüdür.

## Regionda sülhün, əmin-amanlığın, stabilliyin olmasını istəməyən Qərb indi də Gürcüstanı hədəfə alıb

Cənubi Qafqazın hansı ölkəsi özünün müstəqil siyasətini yürüdürsə, regionun hansı ölkəsi Qərbin diqtəsi ilə hərəkət etmirsə, hansı ölkədə inkişaf və tərəqqi müşahidə edilirsə, Qərb həmin ölkəni hədəfə alır. Hazırda Gürcüstanın təkcə qlobal və regional layihələrdə iştirakı deyil, irimiqyaslı infrastruktur layihələri belə həyata keçirməsi amerikalıları və avropalıları görünür, bərk narahat edir. Əvvəla ona görə ki, qeyd olunduğu kimi, Qərb üçün hansısa Cənubi Qafqaz ölkəsinin inkişafı, tərəqqisi, müstəqil siyasət yürütməsi qətiyyən qəbuledilən sayılmır. Digər tərəfdən də Qərb görür ki, region ölkələrindən hansı inkişaf edirsə, Cənubi Qafqazda sülhün təminatçısına, hətta qarantına da çevrilir. Məsələn, Azərbaycanın timsalında Qərb buna artıq əmin olub. Əmin olub ki, davamlı şəkildə inkişaf edən, özünün müstəqil siyasətini yürüdən Azərbaycan daha böyük uğurlar əldə etdikcə, qələbələr qazandıqca, özünün müstəqil siyasəti fonunda Cənubi Qafqazda sülhün nəinki təminatçısına, hətta qarantına da çevrilir. İndi eyni kontekstdən baxdıqda görürük ki, məhz buna görə də Qərb Gürcüstanda qarışıqlıq yaratmaq, bununla da həmin ölkəni inkişafdan, tərəqqidən məhrum etmək, nəticədə də sülhə verə biləcəyi töhfələrin qarşısını almaq niyyətindədir. Çünki artıq son dərəcə əminik ki, Qərb qətiyyən regionda sülhün, əmin-amanlığın, stabilliyin olmasını istəmir. İstəmədiyi üçün də buna mane olmağa çalışır. Bu yolda da məhz region ölkəsini hədəfə alaraq, alət etməyi planlaşdırır. Bunun üçün də ən asan yol isə hədəf hesab edilən dövləti qızışdırmaq, müharibələrə cəlb etmək hesab olunur deyə Gürcüstan üçün də eyni ssenari hazırlanır. Daha dəqiq və qısa şəkildə desək, Cənubi Qafqazda sülhə mane olmaq üçün indi də Gürcüstanı alət etmək barədə düşünülür.

## İstənilən halda Qərb Gürcüstanı ancaq müharibəyə sürükləməyə çalışır və bunu gürcülər özləri də yaxşı başa düşürlər

Qərbyönümlü Gürcüstan müxalifətinin öz seçki kampaniyasını anti-Rusiya ritorikası üzərində qurması fonunda hər şey aydın olur. Aydın olur ki, yenə də Qərb eyni ssenari ilə hərəkət edir. Bəlli olur ki, Qərb hansısa ölkədə müxalifəti qızışdırıb ortaya atmaq və həmin ölkəni də bununla alət etmək ənənəsinə sadiqdir. Yenə də eyni ssenari ilə Gürcüstanı qızışdırmaq niyyətində olan Qərb hesab edir ki, ya müxalifətin hakimiyyəti ələ keçirməsinə dövlət çevrilişi yolu ilə nail olaraq, həmin ölkəni Rusiya əleyhinə qaldıracaq, müharibəni qızışdıracaq, ya da buna nail ola bilməyəcəyi təqdirdə ölkədə narazılıqlar yaradaraq, xaosun hökm sürməsi kimi bir vəziyyəti yetişdirə biləçək ki, bu da sonda elə müharibəyə rəvac verə bilər. Deməli, istənilən halda Qərb ancaq Gürcüstanı müharibəyə sürükləməyə çalışır. Yəni, Qərb oyunlarını qura biləcəyi təqdirdə Gürcüstanı məhz Rusiya ilə sürükləməyə nail ola bilər. Belə çıxır ki, istənilən halda Qərbin niyyəti Gürcüstanı alət etməkdir.

Ümid edirik ki, bütün bu sadalananları gürcülər özləri də yaxşı başa düşürlər. Başa düşürlər ki, amerikalıların və avropalıların qurduqları ssenari ilə onlar ancaq müharibəyə sürüklənirlər. Hər halda, dərk edilər ki, həmin ölkədə oynanılan oyunlarda yalnız bircə məqsəd güdülür və həmin məqsəd Gürcüstandan alət olaraq istifadə etməkdir. Maraqlıdır, görəsən Qərb belə bir niyyətinin hasil olacağına niyə bu qədər əmindir və nəyə arxayın olaraq, çirkin niyyətindən əl çəkmək istəmir? Axı amerikalılar da, avropalılar da gec də olsa başa düşməli idilər ki, gürcülər real vəziyyəti düzgün qiymətləndirməyi daha üstün hesab edəcəklər. Başa düşməli idilər ki, Ukraynanın alət olaraq Qərb tərəfindən istifadə edilməsinin acı nəticələrini gürcülər görməyə bilməzlər və ukraynalıların başlarına gələnlər bir dərs olaraq qəbul edilməkdədir.

***İnam Hacıyev***

# G7-BRİCS qarşıdurması?

*Bu, yeni dünya nizamını formalaşdıracaq*

***Mövcud dünya nizamı sarsılmaq üzrədir və keçmiş düşmənlər müttəfiq ola bilərlər. Hindistan və Çin sərhəd mübahisəsinə baxmayaraq iqtisadi əməkdaşlıq üzərində işləyirlər. Yaponiya və Cənubi Koreya da Pekinlə münasibətinə yenidən baxa bilərlər. Qlobal iqtisadi və strateji nizam sarsılmaq üzrədir. Güc getdikcə çoxqütblü olur və Amerika xalqı təcridçi Donald Tramp və beynəlmiləlçi Kamala Harris arasında prezident seçir. Tarixi milli maraqlar dəyişəndə dost düşmənə, düşmən dosta, yaxud da yarı dost, yarı düşmənə çevrildiyi nümunələrlə doludur. Məsələn, əzəli anti-kommunist Riçard Niksonun 1972-ci ildə Pekinə səfərini götürək. Bunu nəzərə alaraq, gələcək geosiyasi qırılma xətləri üçün hipotetik bələdçini nəzərdən keçirək.***



## ABŞ-ın rəhbərlik etdiyi G7 BRİCS-lə qarşı-qarşıya

2022-ci ildə Rusiya-Ukrayna münaqişəsi başlayandan bəri Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Böyük Britaniya və ABŞ-ın daxil olduğu G7 daha da sıx birləşib. Bu inkişaf etmiş iqtisadiyyatlar Rusiyadan neftin qiymətini məhdudlaşdırıb, onun şirkətlərinə və məhdudiyyətlərdən yayınmağa kömək edən hər kəsə sanksiyalar tətbiq edib, Rusiyanın aktivlərini dondurub və Ukraynaya milyardlarla dollar yardım və kredit göndərib. G7 maliyyə nazirləri birgə bəyanatda Çinin "işçilərimizin və sənayelərimizin maraqlarını, habelə iqtisadiyyatlarımızın dayanıqlığını pozan qeyri-bazar siyasət və təcrübələrindən geniş istifadə etməsini" pisləyiblər.

Amma əgər G7 inanırsa ki, dünyanın qalan hissəsi də onlardan nümunə götürəcək, o zaman nəticə çıxarmağa tələsməsələr daha yaxşı olar. İnkişaf etməkdə olan iqtisadiyyatların BRİCS çoxluğu ikinci sürətlə dünya düzəninə qoşulur. 2001-ci ildə Goldman Sachs Group Inc. iqtisadçısı tərəfindən yaradılan Braziliya, Rusiya, Hindistan, Çin və CAR-ın qısaltma adı altında qruplaşma kimi başlayan birlik dünya səhnəsinə daha çox təsir etmək istəyən ölkələrin virtual blokuna çevrilib. Bəlkə də G7 gücünün proqnozlarından qorunmaq imkanı əldə edə bilib Cənubi Afrika - akronimdə "S"lə 2010-cu ildə BRİCS-ə qoşulub. Ötən ilki sammitdə İran, Birləşmiş Ərəb Əmirlikləri, Efiopiya və Misir təşkilata üzv olub və genişlənmənin bununla bitməyəcəyi bəllidir. Məsələn, Səudiyyə Ərəbistanı qoşulma imkanlarını araşdırır və Nigeriya, Malayziya, Tailand və Tunis artıq maraq göstərib. BRİCS-in himayəsi altında ikitərəfli münasibətlərdə gərginlik də davam edir, məsələn, Hindistan və Çin arasındakı sərhəd mübahisəsi. Lakin bu, onların iqtisadi əməkdaşlıq axtarışına mane olmayıb: Hindistanın son illik iqtisadi araşdırması istehsal gücünü genişləndirmək üçün Çin investisiyalarının cəlb edilməsinin faydalarını görməkdədir.

Harrisin qələbəsi, çox güman ki, ABŞ-ın Çinin təsirinə qarşı çıxmaq üçün Hindistan kimi bəzi BRICS üzvləri ilə daha isti əlaqələr qurmağa çalışarkən G7 vasitəsilə qlobal gündəmi formalaşdırmaq səylərini davam etdirəcəyini görəcək. Trampın ikinci müddəti çoxqütblülük və müttəfiqlikləri vurğulamadan problemə əsaslanan əməkdaşlığı təşviq edən BRİCS konsepsiyasına uyğun xarici siyasətə daha tranzaksiyalı yanaşmaya qayıdış siqnalı verə bilər. Bu fikri Massaçusets Texnologiya İnstitutunun Beynəlxalq Araşdırmalar Mərkəzinin tədqiqat direktoru və baş elmi işçisi Michaela Papa səsləndirib.

Qrupun ən əhəmiyyətli nailiyyətləri maliyyədir. Ölkələr fövqəladə hallarda bir-birlərinə təmin edə biləcəkləri 100 milyard dollar valyuta ehtiyatını birləşdirmək barədə razılığa gəliblər. Beynəlxalq ödəniş mexanizmi hazırlanarsa, taxıl birjası yaradılarsa, daha sıx inteqrasiyaya nail olunacaq. Lakin bu addımlar olmadan belə, yüksək iqtisadi artım templəri ümumiyyətlə daha az demokratik və bazar yönümlü aktorları qlobal iqtisadiyyatdakı paylarını artırmağa təşviq edəcək.

Birləşmiş Ştatlarda partizan düşmənçiliyinə baxmayaraq, Çin uzun müddət həm Respublikaçıların, həm də Demokratların proteksionist radarı altındadır. Buna görə də, bəzi Yapon və Cənubi Koreya texnologiya şirkətləri ABŞ-ın çip ixracına getdikcə daha ciddi nəzarət etməli olduqları təqdirdə Çinə satış baxımından çox itirəcəklər. Yaponiya liderləri xatırlayırlar ki, 1980-ci illərdə ABŞ yarımkeçiricilərin ixracını məhdudlaşdırmaq tələbi ilə ölkənin çip istehsalını sabotaj edib. Həmin günlərdə Tramp Çinin deyil, Yaponiyanın sənaye siyasətlərinə qarşı çıxırdı.

Koreyalı Samsung Electronics Co. və Yaponiyanın Toyota Motor Corp. Prezident Co Baydenin sənaye siyasətinə cavab olaraq Amerika istehsalına investisiyaları artırıb. Ancaq Yaponiya və Koreyanın təhlükəsiz oynadığına dair əlamətlər də var. May ayında onların liderləri 2019-cu ildən bəri ilk rəsmi üçtərəfli sammit üçün Çinin Baş naziri Li Qiang ilə görüşüb, burada ticarət və investisiyaların davam etdirilməsi, təchizat zəncirində əməkdaşlığın gücləndirilməsi və azad ticarət sazişi üzrə danışıqların sürətləndirilməsi planlarını ətraflı müzakirə ediblər.

2019-cu ildə prezident olduqdan sonra Tramp ABŞ-ın Yaponiya ilə müttəfiqliyini tənqid edib və qeyri-bərabər təhlükəsizlik yüklərini pisləməkdə davam edir. O, həmçinin ABŞ-ın Cənubi Koreya ilə müttəfiqliyinin bahasına da həvəsli deyil. Tramp Ağ Evə qayıtsa, Seul və Tokio əsas ixrac bazarı hesab edilən güclü kontinental qonşu ilə uzaq, gözlənilməz müttəfiq arasında qalacaqlar. Yaponiya və Cənubi Koreya ABŞ-la sıx münasibətləri davam etdirəcək və Çinin gücünə şübhə ilə yanaşacaqlar. Sidneydə yerləşən Lowy İnstitutunun Şərqi Asiya üzrə baş elmi işçisi Riçard Makqreqor deyir ki, iqtisadiyyat "fundamental olacaq". Çin iqtisadiyyatı cari tənəzzüldən qurtulsa və ABŞ zəifləsə, hər iki ölkə "çox narahatedici qərarlarla üzləşəcək".

Lula əvvəlki iki prezidentlik müddətinin (2003-2011) qızıl illərini geri qaytarmaq üçün mübarizə aparır. O, mərkəzi bankın qubernatoru və dövlət neft şirkəti Petrobras ilə mübahisə edir və bir vaxtlar onun iqtisadi uğuruna təkan verən əmtəə bumu azalıb. Dünyanın siyasi qütbləşməsi artır. Lula cəmi bir həftə hakimiyyətdə olması ölkə iqtisadiyyatının 2024-cü ilin ikinci rübündə güclü performans göstərməsinə kömək etdi.

Argentinada isə vəziyyət fərqlidir. Keçən oktyabr ayında inflyasiyanı təxminən 300% ram etmək üçün hökumət xərclərini azaltmaq vədi ilə prezidentliyə başlayan Miley qənaət proqramına başladı. İstehlak xərcləri kəskin şəkildə azaldı, işsizlik artdı, real pensiyalar və dövlət sektorunda maaşlar azaldı. Argentinalıların yarıdan çoxu yoxsulluq həddinin altında yaşayır. Yenə də prezident iqtisadi idarəetmənin illərlə davam etməsindən qəzəblənən seçicilər arasında güclü təsir gücünə malik olaraq qalır. İyul ayında, Miley vəzifəyə gəldiyi dekabrda 25,5% ilə üç ilin ən yüksək səviyyəsinə çatan aylıq inflyasiya 4%-ə düşüb.

16-cı BRİCS sammiti Kazanda öz işini yekunlaşdırır və bu, 10 ölkənin (Rusiya, Çin, Hindistan, Cənubi Afrika, Braziliya, İran, Misir, Efiopiya, BƏƏ və Səudiyyə Ərəbistanı) bu birliyinin inkişafında ən mühüm mərhələ olacaq. Sammit iştirakçıları BMT-yə paylanacaq bəyannamə qəbul ediblər. Bu sənəd anti-Qərb manifestinə çevrilməyib. Bəyannamə, bütün sammit kimi, daha çox Qərbə aid edilə bilməyən bir sıra ölkələrin maraqları və bəzi beynəlxalq problemlərə baxışlarının üst-üstə düşməsini əks etdirir.

Kazanda keçirilən BRİCS sammitinin ikinci günündə dar tərkibdə görüş keçirilib. İkitərəfli görüşlər arasında Vladimir Putinlə İran prezidenti Məsud Pezeşkian arasında aparılan danışıqları xüsusi qeyd etmək lazımdır. Söhbətin mətbuata açıq hissəsində İran lideri iki ölkə arasındakı münasibətləri strateji adlandırıb və "dünya hegemonluğunu devirmək" üçün birgə fəaliyyətin zəruriliyindən danışıb. "Düşünürəm ki, ABŞ-ın bizə və sizə qarşı tətbiq etdiyi bütün sanksiyaları birlikdə neytrallaşdıra bilərik", - Pezeşkian deyib. BRİCS-in digər liderləri belə bəyanatlar verməkdən çəkiniblər. Hindistan Xarici İşlər Nazirliyinin sammitin qapalı plenar sessiyasındakı təqdimatında Hindistanın baş naziri Narendra Modi "qlobal problemlərin həllində insan mərkəzli yanaşmanın zəruriliyindən" və "qlobal sülh üçün dialoq və diplomatiyanın əhəmiyyətindən" danışıb.

Çərşənbə günü qəbul edilən sammitin yekun bəyannaməsində diplomatiyanın vacibliyi də qeyd olunub. Mətbuatda gedən məlumatlara əsasən, 43 səhifəlik bu sənəddə 134 bənd var. Onlardan bir neçəsi Yaxın Şərqə, biri isə Ukraynaya həsr olunub ki, bu da yəqin ki, sammit iştirakçılarının əksəriyyətinin həm xarici siyasət prioritetlərini, həm də ümumi baxış bucağını inkişaf etdirməyin çətin olacağı qarşıdurma mövzularından qaçmaq istəyini adekvat şəkildə əks etdirir.

Bəyannamədə "müvafiq forumlarda, o cümlədən BMT Təhlükəsizlik Şurasında və BMT Baş Assambleyasında qeyd edildiyi kimi" Rusiya-Ukrayna münaqişəsi ilə bağlı dövlətlərin mövqelərini xatırladılır. Sənədin eyni bəndində "münaqişənin dialoq və diplomatiya yolu ilə sülh yolu ilə həllini təmin etmək üçün hazırlanmış" vasitəçilik təklifləri qeyd olunur. Bəyannamədə Yaxın Şərqdəki müharibə ilə bağlı daha sərt və konkret ifadələr var.

***V.VƏLİYEV***

# Tornike Şaraşenidze: "Gürcüstanda seçki kampaniyası demokratik keçir, amma qərbpərəst müxalifətin qələbə şansı azdır"

***Ötən bazar günü, oktyabrın 21-də minlərlə gürcü ölkədə parlament seçkiləri ərəfəsində Avropayönlü mitinqdə iştirak edib. "Gürcüstan Avropa İttifaqını seçir" şüarı ilə keçirilən nümayişdə Gürcüstan prezidenti Salome Zurabişvili də iştirak edib. Mitinq "Gürcüstanın Avropa Orbiti" qeyri-hökumət təşkilatı və "Mənim səsim Aİ-də" koalisiyası tərəfindən təşkil olunub. Bəzi analitiklərin fikrincə, bu aksiya müxalifətin seçki gününə- 26 oktyabra qədər davam edəcək kütləvi küçə yürüşlərinə səbəb ola bilər.***



Gürcüstanda siyasi qarşıdurma nə dərəcədə kəskindir? Gürcüstan İctimai Əlaqələr İnstitutunun (GİPA) beynəlxalq münasibətlər üzrə magistr proqramının rəhbəri, professor Tornike Şaraşenidzenin "Caliber" analitik mərkəzinə verdiyi açıqlamaya görə, əgər Qərbdə bəzi qüvvələr demək olar ki, birbaşa olaraq hakim partiyanın itirilməsinin tərəfdarı olduqlarına işarə etdilər, seçkiləri və müxalifəti dəstəklədiyini bildirdilər, ardından təxminən bir həftə əvvəl ABŞ-ın Gürcüstandakı səfiri gürcü xalqının seçiminə hörmətlə yanaşacaqlarını və seçkilərdə qalib gələn partiya ilə çalışacaqlarını açıq şəkildə ifadə etdi.



"Bu arada, görünür, hakim partiya da konsensus axtarışındadır- məsələn, bəyanatlarında açıq şəkildə bildirir ki, seçkilərdən sonra bu münasibətləri yaxşılaşdırmaq üçün Qərblə münasibətləri bərpa edəcək. Lakin o, Rusiya ilə praqmatik münasibətləri inkişaf etdirməyə davam etməklə, Gürcüstanı müharibəyə sürükləmək cəhdlərinə hər cür müqavimət göstərəcəyinə dair xəbərdarlıq edib. Bu gün qüvvələr nisbəti təqribən 50-50-dir, lakin Gürcüstan müxalifətinin parçalandığını və müxalifət partiyalarından birinin beş faizlik səddini aşa bilməyəcəyi ehtimalını nəzərə alsaq, deyə bilərik ki, hakim partiyanın qarşıdan gələn seçkilərdə qalib gəlmək üçün yaxşı şans var",- politoloq hesab edir.

Onun fikrincə, Gürcüstanda seçkilərə bir həftədən az vaxt qalmasına və bu müddət ərzində ictimaiyyətin siyasi üstünlüklərinin köklü şəkildə dəyişməsinin mümkünsüzlüyünə baxmayaraq, Moldovada seçkilərin nəticələri də seçkilərə və Aİ-nin Gürcüstandakı mövqeyi mənfi təsir göstərə bilər.

"Çünki bəziləri Moldovanın Avropaya inteqrasiya yolunda uğurlu islahatlar nümunəsi kimi təqdim edildiyini deyirdi, amma birdən məlum oldu ki, bu, tamamilə doğru deyil. Məncə, gürcü cəmiyyətində, yuxarıda qeyd etdiyim kimi, gürcü müxalifəti arasında təhlükəli parçalanma var; Gürcüstan cəmiyyətində kifayət qədər qütbləşmə var, lakin bu, Gürcüstandakı vətəndaş müharibəsindən sonra 90-cı illərin əvvəllərində yaranıb. "Xarici agentlər haqqında qanun" olmasaydı, hesab edirəm ki, Gürcüstanda aparıcı siyasi qüvvənin seçilməsi ilə bağlı problemlər ümumiyyətlə yaranmazdı. Fikrimcə, Qərb də daxil olmaqla, bir çox qüvvələr "GA-nın" dördüncü müddətə qalacağı ilə çoxdan barışıblar, lakin məntiqin əksinə olaraq, qalmaqallı qanunlar üçün lobbiçilik ediblər və beləliklə, ölkə hakimiyyəti öz mövqelərini sarsıdıb. Əgər bu qanunlar olmasaydı, Gürcüstanda nə mitinqlər, nə də müxalifətin təsir imkanları artmazdı.

Fikrimcə, seçkilər normal şəraitdə keçirilsə və Qərbdə heç kimin onların keçirilməsində günah axtarmağa əsası olmasa, Avropa və ABŞ "Gürcü arzusu"nun qələbəsini qəbul etməyə və qaliblə dialoqa hazır olacaqlar. Sadəcə ona görə ki, ölkədə ümumilikdə demokratiya ilə bağlı vəziyyət müsbətdir: müxalifətin öz telekanalları var və onları heç kim bağlamır, məsələn, Gürcüstanda seçkilər xüsusi elektron formatda keçirilir. Mən ölkə parlamentinin yaxınlığındakı küçələrdə aksiyaların qızğın həddi aşmasını gözləmirəm, vəziyyət ümumən normal və sakitdir- xüsusən də ATƏT müşahidəçiləri bir aydan çoxdur Gürcüstandadırlar və hesabatlarında qeyd edirlər ki, Gürcüstan parlamentinə seçkiqabağı kampaniya həddi aşmadan və heç bir əsas olmadan keçirilir və ya heç bir narahatlıq yoxdur", - deyə T.Şaraşenidze yekunlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*

# Mlin Sakilia: "Fransa Kaledoniyanı hərbiləşdirməklə söz azadlığına mane olur"




Kaledoniyada dinc nümayişlər işgəncəyə çevrilib, bütün ictimai fəallar Fransa polisi tərəfindən həbs edilib. Bu fikirləri BMT-nin Cenevrə ofisində İnsan Hüquqları Komitəsinin (İHK) 142-ci sessiyası çərçivəsində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə keçirilmiş "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt və fransız müstəmləkəçiliyinin nəticələri" adlı beynəlxalq konfransda Yeni Kaledoniyanın Kanak və Sosialist Milli Azadlıq Cəbhəsi (FLNKS) partiyasını təmsil edən müstəqil deputat Mlin Sakilia AZƏRTAC-a açıqlaması zamanı söyləyib. Onun sözlərinə görə, ifadə və siyasi fikirləri boğmaq məqsədilə Fransanın milli, xüsusi və hərbi hüquq-mühafizə qüvvələrinin əksəriyyəti Kaledoniyaya yerləşdirilib. Bildirilib ki, kanaklar həbs olunub, döyülüb, sərt sorğu-suala məruz qalıblar. Həbs olunanlar qeyri-insani şəraitdə saxlanılır, ləyaqətləri tapdalanır. Bu günə qədər 500-dən çox kanak itkin düşüb, 2800 nəfər həbsdə saxlanılır, 13 nəfər ölüb. Qeyd olunub ki, Yeni Kaledoniya özünü idarə etməyən ərazi siyahısındadır, müstəmləkəçiliyə son qoyulmalıdır.

"Fransanın Numea ilə imzaladığı sülh prosesi fransız dövləti tərəfindən tapdalandı. Cari ilin fevralında Fransa dövləti Yeni Kaledoniyanın Konstitusiyasında dəyişiklik etməyə cəhd etdi. Bununla Kaledoniyanın seçki korpusunda dəyişiklik etməyə çalışdı. Ancaq bu dəyişiklik cəhdi Kaledoniyada böyük etiraza səbəb oldu.

Fransa dövləti Kaledoniyanı hərbiləşdirir, adaya çox sayda jandarmlar göndərib və bununla söz azadlığına mane olur. Fikirlərini sərbəst ifadə etməkdə kanaklara mane olur. Son 6 ay ərzində çox hadisələr baş verib, 2800 kanak həbs edilib, 500 kanak itkindir, 13 ölüm qeydə alınıb. Bu rəqəmlər az görünə bilər ancaq 270 min sakin üçün bunlar çox böyük rəqəmlərdir. Buna başqa sözlə "insan ovu" deyilir. Adamızın suverenliyini tələb edən gəncləri terrorist adlandırırlar, halbuki bu gənclər öz haqlarını tələb edirlər", - deyə M.Sakilia Kaledoniyada insan hüquqlarına riayət edilməsini istədiklərini deyib.



MƏTANƏT

# Kart adam

***Həyatımızda hər şey kartlaşa-kartlaşa axır bizi kart adama çevirdi. İndi artıq biz kartlardan asılı kart adamlarıq. Belə ki, həyatımızda elə bir sahə yoxdur ki, onunla bağlı bir kartımız olmasın. Sudan istifadənin bir kartı, qazdan, elektrik enerjisindən istifadənin bir kartı, metro, avtobus kartları, əmək haqqı kartı, bank kartları, ödəniş kartları, iş yerlərinə, təhsil müəssisələrinə giriş kartları, təqaüd kartları və saydıqca ardı gələn digər kartlar...***

Əvvəllər pul qabları istehsal olunurdu. Bir ədəd də cibi olurdu. Həmin pul qablarında pulumuzu saxlayırdıq. Sonralar yavaş-yavaş pul qablarının forması dəyişdi. Elə ki, kart sisteminə keçid etdik, pul qablarına da kart cibləri əlavə olundu. Əvvəl bu ciblər az sayda idi. Vur-tut olardı bir-iki kartımız, onları da həmin ciblərdə saxlayırdıq. Sonralar isə kartların sayı artdıqca, pul qablarının da ciblərinin sayı artdı. Biz kartlarımızı həmin ciblərə düzdük düzə bildikcə...

Hazırda kartlarımızın sayı o qədərdir ki, satışda olan pul qablarındakı ciblərin sayı azlıq təşkil edir. Bəzi adamlar elə məhz buna görə artıq pul qablarını ixtisara salıb kartlıq adlanan çantalardan istifadə edirlər. Çünki biz artıq biz deyilik, kart adamıq.

Gələk bu kart adamların üzləşdiyi mənzərələrə... Məsələn, evdə işıq sönüb, pul ödəməlisən ki, axşam evə qayıdanda qaranlıqda qalmayasan. Belə olanda kart hökmən sənin yanında olmalıdır ki, ödəniş edəsən. Yox, kart əgər yadından çıxıb evdə qalıbsa, vay halına, axşam qaranlıqdasan. Eləcə də su, qaz, telefon, internet və sair...

Məsələn, əmək haqqını almısan, kartında dayanır. İşdən çıxırsan, yolda düşünürsən ki, evin bir-iki çatışmayanını alasan. Əlini atırsan pul qabına ki, kart yanında deyil. Deməli, nə oldu, qaldı sabaha. Hamı kartı telefona yükləməyib ki...

İşə gəlirsən, metroda baxırsan ki, vay, kart qalıb evdə. Vəssalam, dayanıb münasib bir adam tapmalısan ki, ay qardaş, ay bacı, sən Allah məni də keçir. Bu keçmək məsələsi də belədir ki, pul qabında 50 qəpik olmalıdır. Yoxsa camaatın sənə borcu yoxdur ki. İndi gəl gör ki, qəpik olmaya, manat ola, bəs nə etməli? Məcbursan ki, bu pulu xırdaladasan ki, qəpik olsun. Ay xırdalada bildin ay. Nə edəsən, bir manat verib metrodan keçməyəcəksən ki... Bir manat birgünlük yol pulundur ey... Məcbursan ki, üz tutasan evə. Kartını götürüb yenidən qayıdasan. Belə olanda isə işə və getdiyin hər yerə yubandın.

Məsələn, işə gəlirsən, bir də baxırsan ki, vay, turniket kartın yaddan çıxıb qalıb. Nə edirsən, boynunu bükub dayanırsan bir küncdə. Hə, burada vəziyyət daha fərqlidir. O mənada ki, içəridə rəhbərlik izləyir. Sənsə hələ də işdə deyilsən, turniketin yanında dayanıb, fikrə dalmısan. Burada məncə ta fikirləşməyin yeri yoxdur. Çünki artıq sən bu saatlarda işdə sayılmırsan.

Kartlarla bağlı onlarla belə misallar söyləmək olar. Son qənaət isə belədir ki, əslində kart sistemi heç də pis deyil. Bəzi halda insanları süründürməçilikdən, bəzi halda rüşvətxorluqdan xilas edib, vaxtda qənaətə səbəb olub. Lakin biz müasir insanlar-kart adamlar kart sisteminə hələ də uyğunlaşa bilmirik, kartlar da gündən-günə çoxalaraq bizi bu sistem çərçivəsində boğmağa başlayıb. Nə etməli?.. Nə etməli ki, biz kart adamlar bu kartlara uyğunlaşa bilək?

Biz kart adamlar hələlikdə çox ayıq-sayıq olmalıyıq. Kartlarımızı heç vaxt evdə, işdə unutmamalıyıq. Xüsusilə qadınlar pul qablarını dəyişəndə diqqətli olmalıdır ki, kartların da bir-bir yerini dəyişsinlər. Hazırda kartların pul qablarına yerləşməməsi məsələsi də yəqin, nəzərə alınar və yeni pul qabları istehsal olunar ki, kartlarımızın hamısını yerləşdirə bilərik.

Daha sonra isə yəqin elə bir sistem hazırlanıb həyatımıza tətbiq edilər ki, bir kart bütün kartlarımızı əvəz etmək qabiliyyətində olar, bizim də canımızı bu çoxsaylı kartlardan qurtarar. Xeyr, biz bundan sonrakı ömrümüzü kart adam olaraq başa vuracağıq. Lakin bu, daha rahat və səmərəli olar ki, bütün kartlarımız barı bir kartda toplana, vəssalam...

BAXIŞ BUCAĞI

# Gürcüstanı Qərbdən uzaqlaşdıran SƏBƏB

## Tbilisi təhlükəsizliyinə təminat istəsə də



***İyirmi il ərzində gürcülər Qərbi ehtirasla sevirdilər, hər yerdən Avropa İttifaqının bayraqlarını asdılar və "əbədi düşmən" - Rusiya ilə mübarizədə köməklərinə görə amerikalılara təşəkkür edirdilər. İndi sevgi qayığı qayalara çırpılıb, ABŞ və Avropa seçkilər ərəfəsində açıq şəkildə hakim partiyaya qarşı çıxır. Lakin uduzsa belə, Gürcüstanı kollektiv Qərbdən uzaqlaşdıran amillər aradan qalxmayacaq.***

The New York Times yazır ki, Cənubi Qafqazda, Rusiya, Türkiyə və İranla əhatə olunmuş nəhəng Transqafqaz regionunda özünü Qərbin bir hissəsi hesab edən kiçik, cəsur bir ölkə yerləşir. Bir vaxtlar Avropa İttifaqının bayraqları bütün hökumət binalarının qarşısında dalğalanırdı, hətta bloka üzvlük fantaziyadan başqa bir şey kimi görünmürdü. Bir amerikalı ilə görüşən gürcülər demək olar ki, həmişə Birləşmiş Ştatlara məhəbbətlərini və çoxəsrlik düşmənləri olan Rusiya ilə mübarizədə Amerikanın dəstəyinə görə minnətdarlıqlarını bildirirlər.

Bu illər ərzində bu məhəbbət Vaşinqtonda, Brüsseldə və Gürcüstanın uzun müddətdir xoş tərəfdaş olduğu digər Avropa paytaxtlarında hərarətlə qarşılanıb: Qərb dəyərlərinin yayılmasının ilhamverici nümunəsi və nüfuzunun dərinlikdə yayılması üçün əsas strateji forpost, postsovet məkanı kimi qəbul edilib. Ancaq bu günlərdə bu romantika sönməkdədir. Hakim "Gürcü arzusu" partiyası "köhnə dostlarına - Qərb tərəfdaşlarına açıq düşmənçiliklə yanaşmağa başlayıb. Qərb isə borclu qalmır və yüksək vəzifəli gürcü məmurlarına qarşı sanksiyalar tətbiq etməklə cavab zərbələri endirir. Gürcülər parlament seçkilərində səs verməyə hazırlaşdıqca vəziyyət getdikcə gərginləşir. Birləşmiş Ştatlar və Avropa İttifaqı qərəzsiz görünüşünü qoruyub saxlamağa çalışmaqla yanaşı, mümkün qədər açıq şəkildə "Gürcü arzusu"na qarşı çıxırlar.

Rəy sorğuları bu halda etibarsızdır və qarşıdan gələn döyüşdə kimin qalib gələcəyini əminliklə söyləmək mümkün deyil. Amma hakim partiya uduzsa belə, artıq ölkənin Qərbə qarşı çevrilməsinə səbəb olan amillər aradan qalxmayacaq. İflas, Gürcüstanla Qərb arasında münasibətlərin dağılması da əvvəlcə tədricən, sonra isə qəfil baş verib. Və bu münasibətlərin bərpa olunacağına zəmanət yoxdur. Hazırkı böhranın bilavasitə səbəbi Rusiya və Ukrayna arasında münaqişə olub. "Gürcü arzusu" hər iki tərəfi dəstəkləməkdən imtina edərək son dərəcə ehtiyatlı mövqe tutub. Gürcüstan artıq 2008-ci ildə bir dəfə Rusiyaya uduzub və Ukraynadakı vəziyyət gürcülərdə eyni şeyin onların da başına gələ biləcəyi qorxusunu yenidən artırıb.

Qərb siyasətçiləri əvvəlcə gürcülərin neytrallığına rəğbət bəsləyirdilər. Onlar ölkənin qeyri-müəyyən mövqeyini yüksək qiymətləndirdilər: nəhayət, NATO üzvlüyünə nail olmaq üçün illər boyu uğursuz cəhdlərə baxmayaraq, Gürcüstan Qərbdən heç bir təhlükəsizlik zəmanəti ala bilmədi. Tiflis Ukrayna münaqişəsi ilə bağlı bitərəfliyinə paralel olaraq Aİ-yə namizəd statusu almaq üçün müraciət edib. Lakin vəziyyət daha tez pisləşib. Sağçı "Gürcü Arzusu" mürəkkəb sui-qəsd nəzəriyyəsini təbliğ etməyə başlayıb, ona görə də "qlobal müharibə tərəfi" ölkəni Qərb və Ukrayna adından Rusiyaya qarşı hərbi əməliyyatlarda iştirak etməyə sövq edir. Və daxili müxalifət, guya, bu qüvvə ilə əlbir olub.

Partiya medianı və xaricdən maliyyələşən QHT-ləri tənqid atəşinə tutub və bildirib ki, onlar müxalifəti hakimiyyətə gətirmək üçün Qərbdən sifariş alırlar. Bu il geniş etirazlara baxmayaraq, Gürcüstan parlamenti xarici maliyyədən asılı olan təşkilatları xarici agent elan edən qanun qəbul edildi. Bu hadisə ölkə daxilində mövcud hakimiyyətin tənqidini susdurmaq üçün oxşar tərifdən istifadə edən Rusiyadakı vəziyyətlə məşum paralellər doğurur. Belə bəyanatlar Qərb təbliğatının alətidir, Rusiyadakı xarici agentlərin siyahısına birbaşa məlumat alan şəxslər və təşkilatlar daxildir. ABŞ və AB buna çox kəskin cavab verdi. Son bir neçə ayda Vaşinqton onlarla gürcü rəsmisinə qarşı bir sıra maliyyə sanksiyaları və viza məhdudiyyətləri tətbiq etdi və birgə hərbi təlimləri ləğv etdi. Brüssel də öz növbəsində Cənubi Qafqaz ölkəsinin Aİ-yə üzvlüyü ilə bağlı danışıqları dayandırdı. Nəticədə Gürcüstanla Qərb arasında münasibətlər bu gün tarixdə rekord səviyyədə aşağı səviyyədədir.

Bu, Ukraynadakı münaqişənin Cənubi Qafqaza yeni strateji əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Avropa Rusiyadan yan keçməklə Asiyaya nəqliyyat marşrutları qurmağa çalışır: əgər İrandan da qaçmaq istəyirsənsə, o zaman Transqafqaz yeganə mümkün marşrut kimi görünür. Rusiyanın enerji resurslarından asılılığını aradan qaldırmaq üçün Avropa İttifaqı Gürcüstan vasitəsilə Avropaya nəql edilən Azərbaycan qazının alışını artırır və Qara dənizin dibi ilə Gürcüstandan Rumıniyaya yeni güclü elektrik kabelinin çəkilişini maliyyələşdirir.

Avropanın Gürcüstana daha çox ehtiyacı var. Kiçik ölkənin hökuməti bu yaxınlarda Çinin rəhbərlik etdiyi konsorsiuma Çinin "Bir kəmər və yol" təşəbbüsünün bir hissəsi kimi əsas Qara dəniz limanının tikintisi üçün müqavilə imzalayıb. Qərb rəsmiləri strateji layihənin Pekinə təhvil verilməsinə açıq şəkildə etiraz ediblər, lakin diplomatlar özəl olaraq etiraf edirlər ki, heç bir böyük Qərb investoru lazımi vəsaiti ayırmağa hazır deyil. Gürcüstan Aİ ilə ticarət sazişi imzaladıqdan səkkiz il sonra, ABŞ-ı bir yana qoyaq, onun Avropa ilə ticarəti nisbətən təvazökardır, çünki o, sərhədlərinə daha yaxın olan ölkələrlə ticarətə üstünlük verir. Bölgədəki bir çox digər oyunçular kimi, Gürcüstan da avtomobilləri yenidən satmaqla və rus mühacirləri tərəfindən idarə olunan yeni bizneslərə ev sahibliyi etməklə Rusiyanın Qərb bazarlarından təcrid olunmasından iqtisadi fayda əldə edir.

Görünür, bu hadisələr "Gürcü Arzusu"nu Qərbə sarsılmaz sadiqlik əvəzinə sövdələşmələrə yönəldə biləcəyinə inanmağa vadar edib və Gürcüstanın geostrateji əhəmiyyəti Vaşinqton və Brüsseli öz itaətkarlığını və sürətli avtokratiyasını geridə qoymağa kifayət edə bilər. Partiya öz təsirini həddən artıq qiymətləndirə bilər - lakin bu gün ölkənin hər zamankından daha çox imkanlara malik olduğunu danmaq olmaz.

Müxalifət sadə həll yolları təklif etmir. Bir çox gürcünün Qərbdən ideallaşdırılmış baxışları və yüksək gözləntiləri var. Və bunlar daha anarxik 2024-cü ildən daha çox 1990-cı və 2000-ci illərin birqütblü dövrünə uyğun gəlir. Tez-tez belə bir təəssürat yaranır ki, qərbyönlü gürcülər vəziyyəti özləri dəyişməyə çalışmaqdansa, öz ölkələrinə nəzarəti Avropa və Amerikanın ixtiyarına buraxmağa üstünlük verirlər. Müxalifətin qələbəsi böhranın qısamüddətli həlli ola bilər. Lakin iqtisadi və geosiyasi reallıqlar Tiflisin Qərblə münasibətlərinin qaçılmaz olaraq zəiflədiyini göstərir.

Bütün bunlar Gürcüstanı seçkiqabağı çox qeyri-müəyyən vəziyyətdə qoyur. İğtişaşların perspektivləri əhəmiyyətlidir: Hər iki tərəf, həm "Gürcü arzusu", həm də "DemBLOK" seçkiləri pozmağa cəhd edə bilər. Müxalifət çətin ki, məğlubiyyəti qəbul etsin. ABŞ və Avropa İttifaqının vasitəçilik etməyə hazır olacağı gözlənilir, lakin onların uzunmüddətli perspektivdə Gürcüstanı öz orbitlərində saxlaya biləcəkləri bəlli deyil.

***V.VƏLİYEV***

# Şuşanı azadlığa qovuşduran dəmir iradə və siyasi güc

## Prezident İlham Əliyev: "Hər kəs gücümüzü gördü, hər kəs qüdrətimizi gördü, iradəmizi gördü"

"Dəmir yumruğ"un gücü, Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi, xalqın Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşməsi bizi haqqımıza qovuşdurdu, tarixi ədalət bərpa olundu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Həmin sənəd əsasında Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarıldı. Bu dövlət başçımızın siyasi iradəsinin gücü idi. "Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu", - deyə Prezident bildirmişdir. "Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü", - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan torpaqlarımıza səfər edərək, erməni vandallarının törətdiyi əməlləri bir daha xalqımıza göstərir və bu ərazilərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verir, açılışlar edir, yeni təməllər qoyur. Əlbəttə ki, dağıntılara məruz qalmış ərazilərimizi bütün dünya görmüş olur. Təbii ki, ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, ərazilərimizi viran qoysalar da, xalqımıza məxsus din-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çalıb. İşğaldan azad olunan Qarabağın tacı Şuşa yeni inkişaf dövrünü, abadlıq-quruculuq dövrünü yaşayır. Bu müddət ərizində görülən işlərin miqyası kifayət qədərdir.

### QURUCULUQ MEYDANINDA GENİŞMİQYASLI LAYİHƏLƏR

İnkişaf strategiyası nəticəsində Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib. Dinamik inkişafı və beynəlxalq aləmdə qazandığı nüfuzu ilə seçilən Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, insan kapitalının davamlı inkişafını təmin edir. Qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə 16.11.2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi.

İşğaldan azad olunan ərazilərimizin təmir və bərpasına 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılmışdır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək və s. prioritet məsələ olaraq qarşıya qoyulub və əhalinin doğma torpaqlarına geri qayıdışının yüksək səviyyədə təminatı istiqamətində davamlı layihələr həyata keçirilir.






### "VERİLƏN GÖSTƏRİŞLƏR YERİNƏ YETİRİLİR"

Hazırda digər ərazilərdə olduğu kimi, Şuşanın Baş planı əsasında bərpa və yenidənqurma işləri davam etdirilir. Şəhərin Baş planı hazırlanarkən onun tarixi simasının qorunub saxlanılması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb.

Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Hər daşı, hər abidəsi yenidən qurulur. Zəfər qazanan xalq hər qarış torpağına, məhz ruhuna uyğun olaraq nəfəs verir. Axı bu günü illərdir ki, gözləyirdik. Gözləyirdik ki, bizim yolumuzu gözləyən torpaqlarımıza nəfəs qataq. Əlimizlə, zəhmətimizlə, səsimizlə, addımlarımızla. Bu gün bizlərə nəsib oldu. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyərlərinə milli-mənəvi islami dəyərlərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir".

### "FÜZULİ ŞƏHƏRİNDƏN ŞUŞAYA QISA MÜDDƏT ƏRZİNDƏ ZƏFƏR YOLU ÇƏKİLDİ"

Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır. "Şuşada quruculuq işləri, əslində, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra başlamışdır. İlk növbədə, Şuşaya yol çəkilməli idi. Çünki siz yaxşı bilirsiniz ki, işğala qədər olan dövrdə yol Xankəndi ərazisindən keçirdi. Ona görə Füzuli şəhərindən Şuşaya qısa müddət ərzində Zəfər yolu çəkildi. İndi isə daha geniş magistral avtomobil yolu çəkilir. Yeddi tuneli, doqquz viaduku, bir çox körpüləri olan dördzolaqlı gözəl bir yol çəkilir və yəqin ki, gələn ilin sonuna qədər o da hazır olacaq. Şuşanın tarixi abidələrinin bərpası dərhal başlanılmışdır. Birinci, Vaqifin məqbərəsi yenidən quruldu, onun əzəli görkəmi qaytarıldı. Ondan sonra Yuxarı Gövhər Ağa məscidi, daha sonra Saatlı məscidi bərpa olundu. Bu gün Mamayı məscidinin bərpadan sonra açılışını etdik. Çöl Qala məscidində artıq bərpa işləri başlanılıb. Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Artıq dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyük beşulduzlu Şuşa mehmanxanası bu gün Şuşanın müasir görkəmini əks etdirir. Amma yenə o mehmanxana da ənənəvi Şuşa memarlığı üslubunda inşa edilmişdir. Bu gün, eyni zamanda, Şirinsu hamamı əsaslı təmirdən sonra açılmışdır. Aşağı Gövhər Ağa məscidində təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Üzeyir Hacıbəylinin vəhşi düşmən tərəfindən dağıdılmış abidəsi yenidən öz yerinə qoyuldu", - deyə Prezident çıxışlarının biində bildirib.

Şuşada tarixi məhəllələr çoxdur. Bütün işlərə başlamaq üçün, Azərbaycan Prezidentinin göstərişi ilə əvvəlcə Zəfər yolu, tunellər tikildi. Burada 56 kilometr uzunluqda şəhərdaxili yol şəbəkəsi, 81 küçə və müxtəlif kateqoriyalar - 10-12 metr enindən dar yollaradək çəkiləcəkdir. Təbii ki, şəhər mədəniyyət paytaxtıdır. Rəsmi məlumata əsasən, burada 196 abidə var. Artıq bərpa olunan abidələr Şuşaya yeni görkəm verib.

### GÜNÜMÜZÜN REALLIĞI HƏDƏF QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPASIDIR

Bugünki günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasının reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir ki, işğaldan azad olunan ərazilərə etdiyi səfərlər zamanı həmin yerlərdən verdiyi mesajlar, açılışı olan obyektlər, yaradılan infrastruktur layihələri deməyə əsas verir ki, böyük quruculuq işləri nəticəsində bu ərazilərin əksəriyyətində yeni həyat başlayıb. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialını 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir. Ötən iyirmi bir il aydın şəkildə göstərdi ki, Cənab İlham Əliyev Prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və uğurlu gələcəyimizin təmin olunmasına yönəlmiş layihə və islahatlar davamlı olaraq reallaşır.

Şuşada Baş Plan əsasında bulaqlar bərpa olunur. Hər məhəllədə məscid, bulaq və hamam olub. Hamamlardan yalnız biri qalıb, bulaqların hamısı demək olar ki, yararsız vəziyyətə salınıb. Cənab Prezident Şuşa ilə Laçın arasında tikiləcək ilk qəsəbənin təməlini qoyub.

Bu gün Şuşa bu gün yeni bir dövrünə qədəm qoyub. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, müqəddəs şəhər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib.

**Zümrüd BAYRAMOVA**

# İsti döşəmə sistemi: MƏNFİ VƏ MÜSBƏT TƏRƏFLƏRİ

***Böyüklər deyirlər ki, insanı soyuq birinci ayağından alır. Bu halda insan bədəni ilk olaraq ayaqdan isinməlidir. Son zamanlar bir çox evlərdə yerdən isitmənin olduğu həqiqətdir. Bəs, bunun hansı zərər və faydaları var?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Döşəmə istilik sistemi keyfiyyətli istilik sistemidir və ayaqdan başlayaraq ətrafı qızdırır. Bu kombi sistemindən daha rahat və daha yaxşı istilik təmin edir. Həmçinin, kombi kimi yer tutmur və otaqlara əşya qoymaq üçün yerlərin seçilməsinə mane olmur. Məsələn, radiatorun qabağına divan və ya çarpayı qoymuruq ki, istiliyin qarşısını alacaq. Bu zaman həm də otağın forması pozula bilər. Halbuki yeraltı istilik sistemində heç nə görünmür, bütün sistem döşəmənin altındadır, ona görə də otağın istənilən yerinə istədiyinizi yerləşdirə bilərsiniz. Döşəmə istiliyinin quraşdırılması ilə bağlı əsassız söz-söhbətlər olsa da, müsbət tərəflər mənfi cəhətləri üstələyir. Bu sistemi quraşdırarkən, oksigen maneə borularından istifadə etdiyinizə əmin olun. Oksigenə məruz qalmayan borularda santexnika təmizliyinə ehtiyac yoxdur. Oksigen maneəsi olmayan borular istifadə edilmirsə, hər iki ildən bir onu təmizləməlisiniz. Təbii ki, bu sistemin özünəməxsus üstünlükləri və bəzi mənfi cəhətləri var.





## Yerdən isitmənin üstünlükləri

1. Uşaqlı evlərdə bir çox avantajları var. Onlardan biri də dəhliz və ya mətbəx kimi yerlərdə döşəmə keramika ilə örtüldüyü üçün soyuq olur. Döşəmə isitmə sayəsində bu problem aradan qalxır, addım atdığınız hər yer isti olur.

2. Kombi kimi çox yer tutmadığı üçün əşyaların yerləşdirilməsini asanlaşdırır və eyni zamanda yerə qənaət edir.

3. Kombi kimi işləmədiyi üçün evdə təmizlik problemi yoxdur.

4. Radiatorların istifadə olunduğu mənzillərdə onun hər il təmizlənməsi lazımdır. Döşəmə istilik sisteminin isə iki ildən bir təmizlənməsi kifayətdir.

## Yerdən isitmənin mənfi tərəfləri

1. Döşəmə istiliyi olacağı üçün yavaş isinən bir sistemdir. Orta hesabla 2 ilə 4 saat arasında istilik əldə edilə bilər.

2. Söndürüldükdə yavaş isindiyi üçün sistem davamlı işləməlidir.

Bunlardan başqa, təbii ki, bu haqda yayılan söz-söhbətlər də var. Məsələn, həmişə deyirlər ki,



astma və tənəffüs xəstələri üçün zərərlidir. Amma o xəstələri narahat edən şey tozdur. Evdə toz qalmadıqca heç nə olmur.

Bu sistemlərin daima baxıma ehtiyacı var. Döşəmə istilik sistemləri radiator istilik sistemlərindən daha tez çirklənir. Hər 2 ildən bir təmizlənməsə, istilik səmərəliliyi azalır. Quraşdırma ilk dəfə quraşdırılanda dərhal çirklənmədiyi üçün 4-5 il problemsiz işləyir, amma çirkləndikdən sonra daha tez-tez təmizlənməyə ehtiyac duyur. Döşəmə isitmə problemləri təmizləndikdə yox olacaq.

Döşəmə istilik sistemləri kimyəvi məhlullardan və avadanlıqlardan istifadə edilməklə təmizlənir. Amma ümumiyyətlə, hava və su təzyiqli maşınlar kimyəvi maddələrə ehtiyac duymadan bu işi görür. Borularda yığılmış kir, palçıq və bakteriyalar kimyəvi maddələr və maşınlar vasitəsilə təmizlənir.

## Yerdən isitmə sistemində isitmə ilə bağlı problemlər yaşanırmı?

Bu istilik sistemləri zaman-zaman problemlər yaradan alternativə çevrilir. Bunlardan biri yeraltı istilik sistemindəki otaqlar arasındakı temperatur fərqləridir. İstifadəçilərin yeraltı istilik sistemində istilik problemi kimi bildirdiyi problemlər ümumiyyətlə sistemin özündən yaranmır. Bu problemin iki əsas səbəbi var. Baxımların olmaması və kollektor birləşmələri ilə bağlı problemlər. Döşəmə istilik sistemlərində yaranan problemləri iki faktoru nəzərə alaraq həll etməlisiniz. Problemləri həll etmək üçün mütəxəssisinə müraciət etmək lazımdır.

## Döşəmə istilik sistemi və kombi baxımı



Döşəmə istilik sistemlərində kombi baxımının olmamasından yaranan problemləri aradan qaldırmaq üçün müəyyən aralıqlarla kombi texniki xidmət almalısınız. Çünki kombi yalnız suyun qızdırılması funksiyasını yerinə yetirən məhsul deyil. Quraşdırma və istilik performansında suyun dövriyyəsinə təsir edən bir məsələ də budur.

Döşəmə istilik sistemi davamlı və qənaətcil bir istilik sistemidir, lakin onun necə işlədiyinə dair bir çox yanlış fikirlər var. Rehau Satıcısı olaraq, biz yeraltı isitmə ilə bağlı yalan mifləri ifşa etmək və bu sistemin niyə sizin üçün mükəmməl seçim olduğunu sizə göstərmək üçün buradayıq.

## Döşəmə istiliyinin növləri

Miflərə keçməzdən əvvəl, əvvəlcə yeraltı istilik növlərinə nəzər salaq.

Hal-hazırda iki növ yeraltı istilik sistemi mövcuddur: isti su ilə işləyən elektrik sistemləri və hidravlik sistemlər. Hidravlik sistem həmçinin quru sistem və yaş sistem kimi tanınan iki fərqli alt quruluşa malikdir və ikisi arasındakı fərq boruların necə quraşdırıldığıdır.

Yaş sistemlərdə borular şpinin içərisindədir, quru sistemlərdə borular döşəmə taxtalarının içərisindədir və istilik keçiricisi rolunu oynayır. Quru versiya və elektrik sistemləri təmir üçün ən uyğun həll olsa da, siz tez-tez yeni tikinti layihələri ilə "yaş" hidravlik variantı tapa bilərsiniz.

**Mif 1: Döşəmə isitmə sistemi olan ev heç vaxt isinmir**

Döşəmə istiliyinin ənənəvi radiatorlar qədər istilik vermədiyi doğru olsa da, rahat bir mühit yaratmaq üçün kifayət qədər istilik istehsal edir. Sistem istiliyi bütün döşəmə səthinə bərabər paylamaq üçün işləyir, beləliklə otaq temperaturu 25°C-ə qədər yüksələ bilər. Ev sahibləri termostatı bir neçə dərəcə aşağı təyin edə və istilik itirmədiklərinə əmin ola bilərlər.

**Mif 2: Döşəmə istiliyi texniki cəhətdən elektrik istilikdir**

Əlbəttə ki, elektrik döşəməsi elektrik enerjisi ilə işləyir, lakin hidravlik sistem isti su və mərkəzi istilik ilə işləyir. Döşəmə istilik sistemini istilik nasosuna birləşdirmək variantı da var. İstilik nasosu müəyyən qədər elektrik tələb etsə də, o, həm də bərpa olunan enerjiyə əsaslanır. Döşəmə istiliyi daimi aşağı temperaturda işlədiyi üçün sisteminizə istilik nasosu əlavə etmək ideal seçimdir.

**Mif 3: Döşəmə istiliyi yalnız döşəməyə quraşdırılır**

Bu, bir az təəccüblü səslənə bilər, amma əslində döşəmədən kənarda yeraltı istilikdən istifadə edə bilərsiniz. Otaqları daha sürətli qızdırmaq üçün onu divarlara və ya tavanlara da quraşdıra bilərsiniz. Ümumiyyətlə, yeraltı istilik əlavə yer tutmur, buna görə də onu hər hansı bir müasir interyerə mükəmməl şəkildə birləşdirə bilərsiniz.

**Mif 4: Döşəmənin qızdırılması ayaqlarınızı şişirdir**

Döşəmə istiliyinin ilk günlərində otaq temperaturu 35 ° C-dən yuxarı qalxa və bu vəziyyətdə ayaqlarınız şişə bilər. Ancaq günümüzün mövcud sistemləri ilə, xüsusən də eviniz yaxşı izolyasiya edildikdə, bu vəziyyətlər artıq baş vermir.

***Ayşən Vəli***

# Nur bəxş edən nurlu insanlar...



Bilmirəm, nədəndisə cəmiyyətdə çatışmazlıq, hər hansı problem, hansısa xoşagəlməz hadisə olanda tələm-tələsik onu mediada işıqlandırmağa, məlumatı yaymaqda önə düşməyə çalışırıq, amma cəmiyyətdə örnək ola biləcək çox faktlarla qarşılaşsaq da, onu mediada işıqlandırmağa maraqsız oluruq. Bunun iki səbəbi ola bilər: ya cəmiyyətimiz o qədər yüksək səviyyədə inkişaf edib, hər kəs öz mövqeyində o qədər yüksək xidmət göstərir (təəssüf ki, hələ bunu deyə bilmərik) ki, bizim üçün belə örnəklər adi haldır və deməyə, yazmağa ehtiyac hiss etmirik. İkinci səbəb isə qələm adamlarının təmənnasından irəli gələ bilər. Yəni nə qədər gözəl örnək olsa da, gərək onun "zəfəran pulu"nu ödəyələr ki, bu örnəyi yazıb, başqalarına tanıtdırsın. Kim nə deyir desin, bu, anormallıqdır və biz problemlərlə, problem yaradanlarla bərabər cəmiyyətimiz üçün nümunə olan faktları da işıqlandırmalı və "pis"ləri "yaxşı" olmağa cəlb etmək üçün bu nümunələrdən də vaxtaşırı bəhs etməliyik.

İcbari tibbi sığorta (İTS) fəaliyyətə başladığı ilk günlərdən cəmiyyətin qınağına tuş gəlib və qurumdakı nöqsanlar hamını ciddi narahat etdiyindən tez-tez mediada da bu haqda kəskin yazılar dərc edilib. Elə bu yazının müəllifi bu baxımdan "boş dayanmayıb", İTS-in, TƏBİB-in xəstələrin dövlət və özəl klinikalarda müalicəsində mövcud olan çoxsaylı qüsurınlarından vaxtaşırı yazılar yazıb. Və hər zaman olduğu kimi yenə vicdanının səsi ilə, kimisə nahaqdan qaralamaq fikrindən uzaq, mövcud olan problemlərin aradan qaldırılmasına kömək etmək məqsədi ilə yazıb bütün yazıları. Hesab edirəm ki, yazdıqlarımızdan, dediklərimizdən kifayət qədər nəticə çıxaran İTS və TƏBİB yetkililəri artıq öz işini nizama salmaqdadır və bunu qeyd etməmək mümkün deyil. "Aşıq gördüyün çağırar" deyiblər. Mən də son aylarda özümün gördüklərimdən sonra bu haqda yazmağı vicdanımın tələbi kimi qəbul etdim. Axı həmişə tənqid etmişdik, niyə də yaxşını görüb də, yanından ötməliyik?..

Sön vaxtlar gözlərimdə görmə qabiliyyətinin zəiflədiyini hiss edirdim. Yaşla və gecə-gündüz yazıb-oxumaqla bağlı bunu təbii qəbul edirdim. Açığını deyim ki, İTS-dəki yarıtmaz hesab etdiyim xidmətin əvvəllər şahidi olduğumdan ora müraciət etmək fikrim yox idi. Necə deyərlər, puluna minnət, özəl klinikalardan birinə gedib gözlərimi əməliyyat etdirmək haqqında düşünür və bunun üçün tədarük də görürdüm. Ancaq hansısa qüvvə məni çəkirdi ki, İTS-ə müraciət edim. Nəhayət mobil telefonu əlimə alıb e-təbib mobil tətbiqini yükləmək istədim. Çətinliyə düşdüm. İTS-in qaynar xəttinə zəng vurub mobil tətbiqi yükləmək üçün kömək istədim. Adını sonradan çətinliklə öyrəndiyim Nurlana Ağayeva adlı bir xanım 30-40 dəqiqə mənimlə birlikdə mobil tətbiqi yükləməyimə kömək etdi və nəhayət tətbiqi yüklədim. Elə bu adını çəkdiyim xanımın yaşlı bir vətəndaşın probleminə həssas yanaşması, hər dəqiqədə yüzlərlə zəng edilən bir qaynar xətdə çalışan xanımın sona qədər köməyini əsirgəməməsi, hətta mən tıncıxıb vaz keçmək istəsəm də məni mehriban və səmimi sözləri ilə sona qədər dözməyə dəvət etməsi İTS xidməti haqqında indiyədək düşündüklərimi alt-üst etdi. Beləcə, qaynar xətdəki həmin xanımın sayəsində e-təbib mobil tətbiqini yüklədim və daxil olub "Yeni Klinika"da göz xəstəlikləri şöbəsinə növbə götürdüm. Az keçmədi ki, telefonuma növbəmin vaxtı, gedəcəyim ünvan barədə mesaj daxil oldu. İki gün sonra həmin ünvana gəldim. "Yeni klinika"nın girişində mesajda mənə göndərilən qeydiyyat nömrəsini aparata daxil etdim. Bir dəqiqə keçmədən löbhədə həmin nömrəni və qarşısındakı "Kassa-1" yazısını oxuyub birinci kassaya yaxınlaşdım. Burda da adını bilmədiyim bir gənc oğlan yüksək mədəniyyətlə məni dinləyib gedəcəyim şöbəni və otaq nömrəsini qeyd edərək talonu təqdim etdi. Talonla gəlib göz xəstəlikləri şöbəsinə çatan kimi orda da qeydiyyat nömrəmin yazıldığı və hansı otağa getməli olduğumu lövhədə görüb həmin otağa daxil oldum.

Oxucum məni bağışlasın. Bütün məqamları ona görə yazıram ki, İTS haqqında,TƏBİB haqqında, onların göndərişi ilə klinikalarda mövcud problemlər haqqında saysız-hesabsız yazılar oxuyan insanların, bunun müqabilində, yaxşını da görüb, bilmələrində payım olsun istədim. Axı niyə də yaxşını yazmağa çətinlik çəkməliyik?

Xülasə, əvvəl iki gənc xanım gözlərimə dərmanlar damcıladıb, otuz dəqiqə gözləməyimi, sonra həkimin qəbul edəcəyini bildirdilər. Deyildiyi kimi, otuz dəqiqə sonra talonda adı qeyd edilən doktor Xəlil Səfərov məni qəbul etdi. Gözlərimi diqqətlə müayinə edib sonda hər iki gözümdə mirvari suyu (katarakta) olduğunu və əməlyyata ehtiyac olduğunu bildirdi.

Əməliyyata qədər olan analizlər, əməliyyat vaxtının dəqiqləşməsi, razılaşdırılması və digər prossedurlar haqqında da çox yazıb vaxtınızı almaq istəmirəm. Bircə onu qeyd edirəm ki, bütün mərhələlər o qədər dəqiqliklə adladılırdı ki, sanki başqa cəmiyyətdə idim və hər kəsin yüksək intellektlə yanaşmasını, xüsusilə doktor Xəlil Səfərovun assistenti Jalə xanımın əvvəllər alışmadığımız yüksək mədəniyyəti, xəstə ilə ünsiyyətindəki alicənablıq qəlbimi qürur hissi ilə doldururdu. Axı belə yüksək intellektli xidməti həmişə xarici filmlərdə, yaxud xaricdə müalicə olunan xəstələrin söhbətlərində görür və eşidirdik! Burda isə bunun canlı şahidi olur və ölkəmizdə iqtisadi inkişafla yanaşı mənəviyyatımızın, intellektimizin də bu qədər yüksək səviyyədə inkişaf etməsi içimdə milli qürur yaradırdı.

Oxucum səmimiyyətimə inansın, elə bir mühit, elə bir əhval-ruhiyyə var idi ki, əməliyyat günü sanki gözlərimin əməliyyatına yox, hansısa şənliyə, toya gedirdim. Kimsə dana bilməz ki, xəstələrin müalicəsində əhval-ruhiyyənin mühüm rolu var və mən də doktor gözlərimi əməliyyat etdikcə xırda ağrıları belə sevinclə, gülümsəməklə qarşılayırdım. Beləcə əməliyyat olundum, Doktor Xəlil Səfərovun və assistenti Jalə xanımın müntəzəm nəzarəti ilə əməliyyatdan sonrakı müalicəmi də uğurla başa vurdum. Və doktorun yanına sonuncu yoxlamaya gedərkən birlikdə foto çəkdirmək istədiyimi bildirdim. Etiraz etmədi. Assistenti Jalə xanımla birlikdə, əməliyyatdan sonra onlara bağışladığım "Nur dərəsi" kitabımı da əllərinə götürüb birlikdə foto çəkdirdik. Doktor bu fotonun mətbuatda dərc ediləcəyini bilmədi. Sadə, təvazökar, əlləri həqiqətən qızıl olan, mən və mənim kimi minlərlə insanın nuru tükənmiş gözlərinə nur bəxş edən, qəlbi də, ruhu da insanlara şəfa duyğusu ilə yoğrulan doktora, onun kollektivinə minnətdarlıq hissimi necə bildirəcəyimi düşünüb, bu yazıya əl qoydum. Yazdım, yazdım ki, cəmiyyətimizi öz əməli və mənəvi dünyası ilə irəli aparan belə həkimlərimizin olduğuna hər kəs inansın və İTS-in, TƏBİB-in yarandıqları ilk illərdə problemlər mövcud olsa da, artıq hər şeyin yola qoyulmaqda olduğuna hər kəs əmin olsun. Rəbbimdən kimsəyə İTS-ə, TƏBİB-ə müraciət etmək məcburiyyətində qalmağı arzu etmirəm. Ancaq buna məcbur olanda müraciət ediləcək ünvana etibar edilməsinin vaxtı çatdığını və bu etibarın doğrulacağına kimsədə şübhə olmaması istəyi ilə yazıma yekun vururam.

***Təhmasib Novruzov,***
***Yazıçı-publisist***



**Elçin Bayramlı**

# Bir nazirin monoloqu - PARODİYA

***Pay atonnan! Bu nə qəliz mətndi əə. Yüz dəfə demişəm bu donqiliyə ki, yazanda mürəkkəb cümlələrlə yazma, çox elmi, siyasi, iqtisadi terminologiyadan istifadə eləmə. Həm çoxunu başa düşmürəm, həm də tələffüz edə bilmirəm. Sonra jurnalistlər başlayırlar məni lağa qoymağa ki, bu adam kolxoznikdir, niyə nazir işləyir.***

Bu adamı qohumdu deyə işə nahaq götürdüm, bilsəydim küçədə işsiz qalan savadlı kadrlardan birini götürərdim. Bunu da başqa nazirliyə düzəldərdim qarşılıqlı razılıq əsasında, o nazirin də bir qohumunu mən götürərdim işə, qurtarıb gedərdi, heç kim də deyə bilməzdi ki, biz qohumbazlıq edirik...

Tərs kimi bu beynəlxalq konfrans çox ciddi mövzudadır, bütün dünyanın diqqəti burda olacaq. Yaxşı tutaq ki, çıxışın mətnini birtəhər oxudum, amma fasilədə jurnalistlər cumacaqlar üstümə, "şpitilni" suallar verəcəklər. Gəl indi vəziyyətdən çıx. Nə ola ağzından bir "quş" buraxasan. Pay atonnan... Bir həftə mətbuatda, sosial şəbəkələrdə rüsvay edəcəklər məni.

Bunlar məni qaralayıblar elə, qəzetdə-jurnalda yazırlar ki, bəs 15 ildən çoxdur nazir işləyirsən, artıq qocalmısan, çıx pensiyaya, qoy bir az da gənclər işləsin. Mən ölüm, heç hənanın yeridir?

Əvvəla, məndən də çox nazir işləyən adamlar var, onlara niyə demirsiniz? İkincisi, qoca nöş oluram, Məşədi İbadın sözü olmasın, min cavana dəyərəm. Üçüncüsü də ki, hansı köpəyoğlu könüllü şəkildə belə vəzifədən imtina edər?

Bəzi qəzetlər yazırlar ki, bəs bunun filan yerdə villaları, bahalı maşınları, böyük şirkətləri var. Hələ çoxunu bilmirlər ha, Hind okeanındakı şəxsi adadan, təyyarədən və yaxtadan xəbərləri yoxdur, gör onları da öyrənsələr nə qalmaqal salarlar.

Ay balam, nə istəyirsiniz məndən? İndi deyirsiniz nazir gedib adi fəhləylə eyni binada yaşasın, ictimai nəqliyyatdan istifadə eləsin, eyni restoranda nahar eləsin, eyni sanatoriyada dincəlsin filan?

Bunlara bax haa, mən ölüm, guya mənim uşaqlarım bunlarınkı ilə eyni baxçada, məktəbdə, universitetdə təhsil, tərbiyə almalıdir, bunlar kimi metroya zada minməlidir, ucuz produkt, palçıq kimi zavod çörəyi yeməlidir. Ay siz öləsiniz...

Hərə öz yerini bilməlidir, yoxsa fəhlə də özünü insan saydısa, daha nə oldu?

Gedim kostyum kolleksiyama baxım görüm bir əməlli şey tapa bilirəmmi. Andıra qalmış bir deyil, iki deyil, 50-dən çoxdur. Bax, bu "Pyer Kardin" xoşuma gəlir, keçən dəfə Parisdən 15 minə almışdım, o birilərə baxanda elə də bahalı deyil, amma çox yaraşır mənə.

Bu saatı da belə tədbirlərdə taxa bilmirəm, jurnalstlər nayezd eləyib yaxından çəkirlər, sonra internetə qoyub hay-həşir salırlar ki, bu adam 200 minlik saatı necə almışdır. Özü də gündə bir bahalı saat taxır.

Bu arvad da məni lap boğaza yığıb. Həftə səkkiz, mən doqquz xarici sanatoriyalardadır. Evdə axtardığımı da tapa bilmirəm. Qısqandığından özü burada olmayanda qulluqçuları da buraxır evlərinə ki, birdən...

Gedib özümdən 5 yaş böyük qızla evlənəndə bilirdim ki belə olacaq. Nədi-nədi filan nazirin qızıdır. Mənim əqidəmə görə, kişi arvaddan "neskolko da olmasa xotya" bı 3-4 yaş böyük olmalıdır, həm də gərəkdir ki, atası vəzifəcə səndən aşağı olsun. Yoxsa ona sözün keçməz. Amma neyləyim kişi zorla evləndirdi ki, nazir qızıdır. Hələ bu kiçik oğluma bax sən Allah. Gedib yarım milyonluq maşınla şəhərdə lotuluq edir. Videosunu çəkib qoyurlar internetə, döşəyirlər qabırğama ki, guya mən lap qudurmuşam. Heç sözdür mən ölüm? Aman-zaman bir sonbeyişim var, indi ona "kakoy ni bud" 50 minlik maşın alası deyiləm ha. Uşaq üzümə də baxmaz ey.

Əsəbiləşdim ee lap, yaxşısı budur, bir siqar çəkim. Yaxşı ki, keçən dəfə Kubadan dənəsi 50 dollardan gətirtdiyim siqardan qalıb, görüm hara qoymuşam... Deyəsən, 4-cü mərtəbədəki kabinetimdə qalıb. Ev də ev deyil ey, Allah göstərməsin, elə bil oteldir, eni-uzunu-hündürlüyü bilinmir. Arvad evdə olanda liftlə çıxmağa qoymur ki, hərəkət elə, şişirsən getdikcə. Yaxşı ki indi evdə yoxdur, yorulmuşam ey, gərək liftlə çıxım.

Öz aramızdı, yaşlanıram haa, daha işləməyə də taqətim qalmayıb. İşləmək deyəndə onsuz da elə sən deyən işləmirəm. O gün prezident müşavirədə abrımı ətəyimə bükəndən sonra, düşündüm ki, lap ağını çıxarmışam. İclasda görəydiniz, mən tər tökəndə, o birilər necə sevinirdilər. O qədər göz dikən var ki yerimə. Söz verdim ki, nöqsanları tezliklə düzəldəcəm, indi gərək başlayım doğru-düzgün işləməyə.

Nə isə, daha gecdir, düşüm zirzəmidəki saunada bir az istirahət eləyim, sonra yatım. Mühafizəçi və xidmətçi dəstəsinə də gərək tapşırım səs eləməsinlər. Bu neçə hektarlıq bağda neçə-neçə nadir heyvan növü var, gör birinin səsi çıxırmı, amma o delfinlə krakadil lap həyasızdırlar, yaman səs salırlar, başıma düşür.

Arvad elə bil burda zoopark açıb. Nə qədər adam acından ölür dünyada, biz bunlara nələr yedirdirik, o dünyada dərimə saman təpəcəklər. Bir dəli şeytan deyir, hamısını sat, puluna yoxsullara yardım elə, xəstəxana tik, məktəb aç. Amma onda da qonaq-qara yanında biabır oluram, prestijim aşağı düşür...

Nə isə, yuxum gəlir... bu məsələni konfransdan sonra bir yaxşı fikirləşərəm...

# “Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq”

44 günlük müharibə müstəqil Azərbaycan dövlətinin gənclərinin nə qədər vətənpərvər olduğunu bir daha görstərmiş oldu. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər vətənpərvər ruhda tərbiyə almış və hər qarış torpağın müdafiəsində dayanaraq Vətən müharibəsi başlayan gündən könüllü olaraq orduya yazılmaları, Vətən torpaqlarının müdafiəsinə qalxaraq vahid niyyət ətrafında birləşib əzmkarlıqlarını, vətənə sevgisi hissini iradəsi və gücləri ilə daha da göstərmiş oldular. ”Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib”, deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: ”Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi”.



Respublikanın dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağını hər şeydən uca tutan gənclərimiz qürur mənbəyimiz, and yerimiz olan Bayrağımız qarşısında baş əyərək, müqəddəs varlıq kimi ona and içdilər. Bu Azərbaycan Ordusunun, gəncinin sahib olduğu gücə, bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Neçə-neçə gəncimiz vətən torpağının işğaldan azad olunmasına qoşuldu, şəhadətə qovuşdular. Bu gün 2020-ci ilin 25 oktyabr tarixində müharibənin şiddətli günlərini yaşayırdıq. Hər gün qələbə sevincini yaşamaqla yanaşı, şəhidlərimizin cənazəsini də torpağa tapşırırdıq.

### AZƏRBAYCAN BAYRAĞINI XUDAFƏRİN KÖRPÜSÜNƏ SANCAN QƏHRƏMANIMIZ

1988-ci il iyul ayının 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olan Paşayev Elsevər Vaqif oğlunun şəhadətə qovuşması Vətən sevgisi ilə müharibənin qaynar nöqtələrində vuruşduğu zaman olmuşdur. 1994-cü ildə Cəbrayıl rayon 21 saylı ümumi orta məktəbin 1-ci sinfinə gedən Elsevər nə vaxtsa şəhid olacağını heç düşünməmişdi. Amma ilk illərdən vətən torpağının işğalda olduğunu və vətənə çəpər olacaq bir oğul kimi böyüdüyünü yaxşı anlayırdı. 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə daxil olmuş və 2010-cu ildə həmin məktəbi moto-atıcı ixtisası üzrə bitirmişdir. 2011-2013-cü illərdə N saylı hərbi hissədə taqım komandiri, 2013-2018-ci illərdə taqım komandiri - bölük komandiri vəzifələrində xidmət etmişdir. Qəlbi vətən eşqi ilə döyünən Elsevər sanki hərbiçi doğulmuşdur. Çox savadlı idi və beş xarici dil bilirdi. Xarici ölkələrdə xarici hərbçilərə hərbi təlimlər keçmişdir. Əfqanıstanda Azərbaycandan gedən Sülhməramlıların komandiri olmuşdur. 2014-cü ildə NATO təlimində iştirak üçün Bolqarıstanda, 2015-ci ildə snayper atıcı kursunda iştirak etmək üçün Türkiyə Respublikasında, 2019-cu il Böyük Britaniya krallığında, Çexiyada, Almaniyada və 2019-cu ilin dekabrın 11-dən 2020-ci ilin iyulun 1-nə kimi Əfqanıstanda təlimlərdə iştirak edib. Vətənin bölünməzliyi uğrunda gedən İkinci Qarabağ savaşında 400-ə yaxın əsgərimizi mühasirədən çıxaran E.Paşayev Xudafərin körpüsünə Azərbaycan bayrağını sancmışdır. 25 oktyabr 2020-ci il tarixdə Qubadlı şəhərinin azadlığı uğrundakı döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 2-ci Fəxri xiyabanda dəfn edilmişdir. Ailəli idi, iki övladı vətənə əmanətdir. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə mayor Paşayev Elsevər Vaqif oğlu ölümündən sonra ”Qarabağ” ordeni, ”Vətən Uğrunda”, ”Cəbrayılın azad olunmasına görə”, ”Qubadlının azad olunmasına görə” medalları ilə də təltif edilmişdir.

Azərbaycan üçün önəmli olan Qarabağ münaqişəsi 30 ildən sonra öz həllini tapdı. Torpaq uğrunda ölən varsa, Vətəndir! Qarabağı azadlığa qovuşduran isə müqəddəs şəhidlik məqamına yüksələn neçə-neçə cəsur, mərd qəhrəmanlar oldu.

Ruhunuz şad olsun, igid Vətən oğulları, Azərbaycan sizi heç vaxt unutmayacaq. Onların qəlbimizdə abidələri ucalıb. Şərəfli yol seçərək, şəhidlik zirvəsinə yüksəldilər. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ”Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Məktub Amerikanın gərəksiz, faydasız balans siyasətini ortaya qoyur”



”ABŞ Prezidenti Cozef Baydenin xüsusi köməkçisini Bakıya göndərməsi və Azərbaycan Prezidentinə məktub yazması diqqət çəkən hadisədir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.O bildirib ki, bu, ilk növbədə son vaxtlar Amerikanın Ermənistana verdiyi hərbi-siyasi, diplomatik dəstəyin Azərbaycanda doğurduğu əsaslı narahatlıqla bağlıdır: ”Amerika Ermənistana birtərəfli qaydada hərbi-siyasi, diplomatik dəstəyi gücləndirməsinin Azərbaycanı necə narahat və narazı saldığının fərqindədir. Baydenin köməkçisinin səfəri və gətirdiyi məktub da birinci növbədə Azərbaycanın bu narazılıq və narahatlıqlarını aradan qaldırmağa xidmət edir. Ancaq Azərbaycanın narazılıq və narahatlıqlarının ciddi əsası var. Çünki Amerika Ermənistanla bizim aramızda hələ sülh atmosferinin rəsmi şəkildə əldə edilmədiyi şəraitdə Ermənistanın mövqeyini gücləndirir. Bu da yolverilməzdir. Digər tərəfdən diqqət çəkən odur ki, Bayden Azərbaycan Prezidentinə və Ermənistanın Baş nazirinə yüzdə yüz eyni məzmunda məktub göndərib. Çox maraqlı faktdır. Baydenin belə addımı hansı məqsədlə atdığı barədə tam qətiyyətli fikir söyləmək çətindir. Amma ən real ehtimallardan biri bundan ibarətdir ki, Amerika bununla Azərbaycana və Ermənistana, guya, eyni ölçüdə və eyni səviyyədə balanslı şəkildə yanaşdığını nümayiş etdirmək istəyir. Amma çox təəssüflər olsun ki, biz Qərbin, o cümlədən Amerikanın Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi 30 ildəki qərəzsiz balans yaratma siyasətini hələ də görməkdəyik.Bu məktub məsələsi Amerikanın gərəksiz, faydasız balans siyasətini bir daha ortaya qoyur. Əvvəlcə, məktubda ifadə olunan bir fikir bunu sübut edir. Amerika Prezidenti belə bir mövqedədir ki, sülh sazişinin bu günə qədər razılaşdırılmamış maddələrinə münasibətdə hər iki tərəf kompromislərə getməlidir. Bu, indiki şəraitdə Azərbaycanın və Ermənistanın sülh sazişinin bağlanması məsələsində rolunu lüzumsuz şəkildə balanslaşdırmaq cəhdidir ki, bunun heç bir faydası ola bilməz. Çünki Azərbaycanın müəyyən etdiyi sülh sazişinin imzalanması üçün vacib saydığı və Ermənistanın bu günə qədər razılaşmaq istəmədiyi maddələr prinsipial maddələrdir. Uzun müddətli sülh üçün çox böyük önəmə malikdir”.”Ermənistan Azərbaycanın konstitusiyanı dəyişdirmək, ATƏT-in Minsk qrupundan rəsmi qaydada imtina etmək kimi şərtlərinə əməl etməsə, bu şəraitdə sülh sazişinin imzalanması mümkünsüzdür. Hətta mümkün olsa belə, uzun müddətli sabitliyə və sülhə təminat verə bilməz. Halbuki, Amerika Prezidenti məhz bu maddələrlə bağlı Azərbaycanı çox anlaşılmaz və müəmmalı şəkildə kompromislərə səsləyir. Ermənistanın kompromisinin isə nədən ibarət olacağı Baydenin məktublarında özünü, təəssüf ki, aydın şəkildə göstərmir. Eyni zamanda Baydenin bu sazişinin Azərbaycanın suverenliyini bu sazişlə əlaqələndirməsi də fikrimcə, mübahisəli mövqedir, çünki Ermənistanla sazişin imzalanıb-imzalanmamasının Azərbaycanın suverenliyinə heç bir əlaqəsi yoxdur. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü artıq təmin edib, torpaqları azad edilib. BMT-nin qəbul etdiyi, tanıdığı çərçivədə Azərbaycan öz suveren dövlət hüquqlarını bərpa edib. Belə bir şəraitdə suverenliyin Ermənistanla hər hansı sazişdən asılı vəziyyətə salınması, məncə, düzgün yanaşma deyil. Təəssüf ki, Baydenin məktubunda bu da yer alır. Amma Baydenin indiki şəraitdə Azərbaycan-Ermənistan sülh sazişinin imzalanması ilə bağlı belə bir jest etməsi maraqlı hadisədir. Ancaq bunun arxasında biz Amerikanın sülh prosesinə həqiqətən dəstək vermək addımlarını görmək istəyərdik. Bunu isə gələcəkdə görüb-görməyəcəyimiz gələcəyin işidir” - deyə o, əlavə edib.

***S.Ağazadə***



# “Ermənistan yeni müharibə ocaqları yaratmağa çalışır”

*MÜNASİBƏT*

“Ermənistan həmişə olduğu kimi son dövrlərdə də qeyri-konstruktiv mövqe nümayiş etdirir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.O bildirib ki, Ermənistan xarici havadarlarının, Avropa ölkələrinin, Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə həm müharibə ritorikalarını artırır, həm də kütləvi şəkildə silahlandırılır: ”Bu isə o deməkdir ki, Ermənistan daha çox bölgədə yeni müharibə ocaqları yaratmağa can atır. Ermənistanın sülh müqaviləsi imzalamaqla bağlı heç bir əməli, yaxud da, real addımı görünmür. Əgər belə olmasa idi Ermənistan Azərbaycanın irəli sürdüyü bir neçə haqlı tələbləri qeyd-şərtsiz yerinə yetirərdi. Bölgəmizdə Azərbaycanın sülh və təhlükəsizlik istəklərinin yerinə yetirilməsinə şərait yaradardı. Amma biz, təəssüf ki, Ermənistanın bu niyyətini görmürük. Ermənistan daha çox Cənubi Qafqazda yeni müharibə ocağı yaranmasına çalışır. Əlbəttə ki, bu prosesdə heç də öz iradəsi ilə deyil, Qərbin və digər beynəlxalq havadarlarının dəstəyi ilə prosesi daha da təhlükəli vəziyyətə gətirib çıxarır. Ermənistanın kütləvi şəkildə silahlandırılması beynəlxalq dairələrin dəstəyi ilə öz ərazilərində tez-tez hərbi təlimlər keçirməsi, Amerika Birləşmiş Ştatlarının hərbiçilərinin Ermənistanda hərbi təlimlər keçirməsi Avropa İttifaqı ”missiyasının” tez-tez Azərbaycanla sərhədə gəlməsi və orada müəyyən təxribatçı müşahidələr və hərəkətlərə yol verməsi onu göstərir ki, Ermənistan çox ciddi cəhdlə sülhdən uzaqlaşır. Sülh imzalama istəmir”.”Ermənistanın işğalçı mahiyyəti də bundan ibarətdir ki, Ermənistan daim seperatizm və terrorçuluq siyasəti həyata keçirir. Bu siyasətin formalaşmasında onun xarici havadarlarının da çox böyük rolu olub. Məqsəd aydındır, çünki həmin dairələrin alətinə çevrilən Ermənistan bu gün Azərbaycana qarşı təzyiq və təhdid vasitəsi kimi istifadə olunur. Bu da çox böyük təhlükəli prosesdir. Çünki əgər Azərbaycan Ermənistanın bu qeyri-konstruktiv mövqeyinə qarşı çox ağır şəkildə zərbələr vurarsa, bu zaman Ermənistan üçün çox faciəvi nəticələrə gətirib çıxaracaqdır” - deyə o, əlavə edib.

***Söylü***

# Fransanın növbəti dayaz və bəsit cəhdləri

## *Rəsmi Paris Cənubi Qafqazda yenidən gərginlik yaratmaq əvəzinə özünün ləkəli tarixinin yaratdığı problemlərin həlli ilə məşğul olsa yaxşıdır*

***Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Fransanın ölkəmizə qarşı aqressiv siyasəti daha da şiddətlənib. Rəsmi Paris əsassız olaraq ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa çalışır və bütün platformalarda Azərbaycana qarşı böhtan kampaniyası aparır. Görünən odur ki, Fransa ermənilərdən çox ermənilik edir.***

Fransanın xarici işlər naziri Jan-Noel Barrot ənənəsinə sadiq qalaraq bugünlərdə yenə də Azərbaycanı hədəfə alıb. O, "France İnter" kanalına müsahibəsi zamanı bildirib ki, guya Azərbaycan Ermənistana münasibətdə beynəlxalq hüququ pozur. Fransız nazirin ölkəmizin Ermənistana münasibətdə beynəlxalq hüququn hansı norma və prinsiplərini pozmasını nəzərdə tutduğu müəmmalıdır. Amma aydın olan bir məqam var. Bu da Ermənistanın təxminən 30 ilə yaxın beynəlxalq hüquqa, onun sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü kimi başlıca prinsiplərinə məhəl qoymamasıdır. Xüsusilə BMT Nizamnaməsində və ATƏT-in Helsinki Yekun Aktında təsbit edilmiş ərazi bütövlüyü prinsipinin başlıca məzmunu ondan ibarətdir ki, dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Hər bir dövlət başqa dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir. Dövlətin ərazisi qanunsuz güc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz. Ermənistan isə Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan ərazilərini işğal etmiş, həmin ərazilərdən qeyd-şərtsiz çıxmaqla bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə əməl etməmiş, üstəlik, işğal etdiyi ərazilərdə daha bir cinayət - qanunsuz məskunlaşdırma siyasəti həyata keçirmişdir. Guya ki, bütün bunlardan Fransa XİN başçısının xəbəri yoxdur? Əlbəttə ki, var. Amma




















Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə fransız nazirin Azərbaycan əleyhinə səsləndirdiyi fikirlərə dair şərhində bildirib ki, Jan-Noel Barrotun müsahibə zamanı Azərbaycanın Ermənistana münasibətdə beynəlxalq hüququ pozduğunu bildirməsi bu ölkənin Azərbaycana qarşı növbəti əsassız və qərəzli münasibətinin, beynəlxalq hüquqa dayaz və səthi yanaşmasının göstəricisidir.

Azərbaycanın bütün addımlarında beynəlxalq hüququ və ədaləti əsas götürdüyünü diqqətə çatdıran XİN rəsmisi qeyd edib ki, ölkəmizin beynəlxalq hüquqa zidd davrandığını iddia etmək absurddur və Fransanın bunun əksini sübut edəcək heç bir dəlili yoxdur.

A.Hacızadə açıqlamasının davamında bildirilib: "Maraqlıdır ki, özünü beynəlxalq hüququn təbliğatçısı və ədalətin təminatçısı kimi təqdim edən Fransa heç zaman Azərbaycana münasibətdə beynəlxalq hüququn bütün norma və prinsiplərinin kobud şəkildə pozulmasını tənqid etməyib. Bir milyona yaxın azərbaycanlını öz doğma yurdyuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş, Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya edilmiş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu heçə sayan Ermənistanı qurban kimi təqdim etmək yanlış siyasətdən xəbər verir. Dünyanın bir çox yerlərinə münasibətdə xarici siyasəti iflasa uğramış Fransanın bölgəmizdə destruktiv fəaliyyətinə son qoyulmasını bir daha tələb edirik".

Görünən odur ki, Ermənistandan bir alət kimi istifadə edən Fransa bu gün Cənubi Qafqaza aqressivcəsinə, radikal düşüncə ilə soxulur və bu da neokolonial təfəkkürün göstəricisidir. Paris hər fürsətdən istifadə edərək Azərbaycanı beynəlxalq ictimaiyyətin gözündən salmağa cəhd göstərir. Ermənistanı "qurban", Azərbaycanı isə "təcavüzkar" göstərməyə can atmaqla fransız siyasətçilər sanki tarixi "missiyalarını" yerinə yetirdiklərini düşünürlər. Belə görünür ki, Fransanın Azərbaycanla münasibətləri normallaşdırmaq istəyi yoxdur. Çünki rəsmi Paris yenə də anti-Azərbaycan siyasətlərini davam etdirir və bununla da özlərini Cənubi Qafqazda sülh prosesindən faktiki olaraq təcrid edirlər.

Demokratiyadan dəm vuran rəsmi Paris bu gün Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan tanınmış fəal Kemi Sebanın Fransa hüquq-mühafizə orqanları tərəfindən qeyri-qanuni saxlanılmasını qətiyyətlə pisləməlidir. Bu qanunsuz addım yalnız şəxsi azadlıq və insan hüquqlarının kobud pozuntusu deyil, həm də Afrika xalqlarının neokolonializmə qarşı mübarizəsinə və suverenlik hüququna yönəlmiş təzyiq kimi qiymətləndirilməlidir. Fransa Afrikada mövcudluğunu və təsirini qeyri-legitim yollarla davam etdirməyə çalışdığını bir daha sübuta yetirir. Bu cür hərəkətlər Fransa dövlətinin hələ də müstəmləkə dövrü təfəkküründən çıxmadığını və öz hegemonluğunu qorumağa çalışdığını göstərir. Bu, Fransanın demokratiya siyasətindəki ikili standartların mövcudluğunu bir daha təsdiqləyir. Fransa Cənubi Qafqazda yenidən gərginlik yaratmaq əvəzinə, özünün ləkəli tarixinin problemlərinin həlli ilə məşğul olsa, sözüm də elə burada bitsə yaxşıdır

**Yaqut Ağaşahqızı**



FELYETON

# İmam ehsanı

Lənət sənə, kor şeytan. Durduğum yerdə yadıma düşən məsələyə bax...

Deməli, nədən oldu, niyə oldu bilmirəm, bu imam ehsanı məsələsi birdən-birə yadıma düşdü. Dünəndən nə qədər gülmüşəm, deyə bilmərəm. İndi deyəcəksiniz ki, ay Allahsız-imansız, nəyə gülürsən? Yox, mən nə Allahsızam, nə də imansız.

Sadəcə, övladları ali məktəbə qəbul olandan sonra valideynlərinin verdiyi imam ehsanı məsələsinə gülmədən keçə bilmirəm. Bəlkə də çoxlarınız imam ehsanı verməmisiniz, lakin inanın ki, yüzlərlə valideyn övladı ali məktəbə daxil olandan sonra ya evində, ya da məsciddə imam ehsanı verir.

Ona görə gülmək məni tutub ki, nə qədər axtarıram bunun mənasını dərk edə bilmirəm. Uşaq ali məktəbə girib, lap yaxşı, əla, əntiqə. Əslində bu, onun vəzifəsi, borcudur. Nə etməli idi ki? Nəyi kəsir idi ki? Oxumalı idı də... Bəs belə isə, biz nə üçün ali məktəb sözünü eşidən kimi imam ehsanı tədarükünə başlayırıq?

Deyirəm bəlkə valideynlər şükür edirlər ki, uşaqları məktəbi bitirib, ona görə imam ehsanı verirlər? Düşünürlər ki, məktəb xərclərindən canımız qurtardısa, elə buna bir imam ehsanı düşür də. Nə bilim, bəlkə fikirləşirlər ki, uşağımız yaxşı-pis bal toplayıb, ona görə imam ehsanı verirlər, bunu da bilmirəm.

Bəlkə ona görə imam ehsanı verirlər ki, uşaq, cəhənnəm, az bal toplasa da, məni qohum-qonşu yanında üzüqara etmədi, ödənişli təhsilə düşsə də, ali məktəbə girdi. Vallah, bunu da deyə bilmərəm.

Nə bilim, görəsən daha nə düşünüb imam ehsanı verir valideynlər? Deyirəm bəlkə ona görə verirlər ki, repetitordan da canları qurtarıb. İndiyədək repetitorlara tökdükləri pulun bir ayını ərzağa verib imam süfrəsi açanda nə olar ki?..

Görəsən daha nə, hansı səbəb ola bilər, imam ehsana vermək üçün? Kim bilir, bəlkə də valideynlər əhd edibmiş ki, balam ali məktəb tələbəsi olsun. Sonra da görəndə ki, yox, bundan oxuyan çıxmaz, qəbul imtahanından sonra balların enməsi zamanı birdən övladının 150-200 balla ali təhsil ocağına qədəm qoyacağına sevinib imam ehsanı verirlər, vallah, bu da ola bilər...

Belə də olar ki, oğlanların valideynlərinin hamısı arzu edir ki, uşaq ali məktəbə girsin, dörd il oxusun, sonra əsgər getsin. Ona görə ki, hələ uşaqdır, bir az aradan keçsin, ağıllansın, bədəni-filan formaya düşsün. Hə, bəlkə də elə bundan ötrü imam ehsanı verirlər uşaqları ali məktəbə daxil olanda valideynlər...

Axı əvvəllər uşaq ali məktəbə girəndə uzun bir masa açıb, üzərinə min bir nemət düzüb qonaqlıq verən valideynlər də var idi. Nə bilim, bəlkə də fikirləşirlər ki, elə bu masanı açırıq, açırıq, qoy elə imam yolunda olsun ki, imamlar da övladımızı qorusun. Vallah belə də olar. Nə səbəbdəndir bilmirəm, neçə illərdir, uşağı ali məktəbə qəbul olan əksər valideyn imam ehsanı verir. Səbəbini çox axtarsam və tapa bilməsəm də, Allah qəbul etsin deməkdən başqa nə çarə...

**Mətanət Məmmədova**



# Bakı Metropolitenində artıq yeni avadanlıqlar istifadə olunacaq

*QURUM RƏSMİSİ AÇIQLADI*

"Bakı Metropoliteninin fəaliyyətinin təmin olunmasında ən mühüm sahələrdən biri elektrik depolarıdır. Metropolitenin bütün həyat fəaliyyətini təmin edən əsas sistematik fəaliyyət məhz depodan başlayır. Bakı Metropoliteni qatarlarının xidməti qulluğu, baxışı, təmiri də burada həyata keçirilir. Son 10 ilə nəzər salsaq, Bakı Metropoliteninin elektrik deposu tamamilə dəyişib. İlk növbədə qatarların cari təmirinin aparıldığı sahə 2017-ci ilə qədər ən müasir standartlar səviyyəsində yenidən qurulub, bu proses davamlı olaraq aparılır. Çünki yeni nəsil qatarların sayının artması artıq həmin qatarlara təmir və ya xidməti baxışın keçirilməsinə olan tələblər səviyyəsində qurulmalıdır". Bu sözləri SİA-ya açıqlamasında Bakı Metropoliteninin mətbuat katibi Bəxtiyar Məmmədov deyib.

O bildirib ki, yeni nəsil qatarlarda kondisioner sistemi olduğundan Bakı Metropoliteni elektrik deposunda həmin sistemlərə baxış qulluğu keçirmək üçün müvafiq təhlükəsiz şəraiti təmin edilib: "Ümumiyyətlə qatarların təmirindən danışırıqsa, ilk növbədə qatarların gecələməyə dayandığı sahələri qeyd etməliyik. Son dövrlərdə təmir-baxış kanallarının yarısı əsaslı təmir olunaraq, yenidən qurulub. Həmin baxış sahələri dərinliyi təmin olunmaqla qatarın vaqonaltı avadanlıqlarını baxışının və qulluğunun aparılması məqsədilə lazım olan müasir standartlar səviyyəsinə gətirilib. Deponun elektrik təchizatı da vacib məsələlərdəndir. Bu səbəbdən də depo ərazisində köhnə elektrik yarımstansiyaları ləğv olunub və yeniləri qurulub, dünyanın ən müasir avadanlıqları quraşdırılıb.

Eyni zamanda qatarlara baxış üçün qazanxana sisteminin fəaliyyəti də çox mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də iş şəraitinin daha da yaxşılaşdırılması baxımından qazanxana sistemi tamamilə yenidən qurulub.

Qatarların təmirindən danışarkən iki sahəni xüsusi qeyd etmək lazımdır. Onlardan birinci vaqonların əsaslı təmirinin yerli şəraitdə həyata keçirilməsidir. Bununla bağlı xüsusi yeni sex inşa olunub. Artıq Bakı Metropoliteni elektrik qatarlarının orta və əsaslı təmir növlərini özü həyata keçirilir. Buna görə də qatarlar artıq ölkə xaricinə daşınmır və bu da səmərəli fəaliyyəti təmin edir. Digər, yeni ikinci mühüm sahə isə ekektrik mühərriklərinin əsaslı təmiri sahəsidir. Bu təkcə elektrik qatarlarının deyil, ümumiyyətlə metropolitendə olan bütün sahələrin təmirini özün birləşdirir. Hər il metropolitenin dərc etdiyi texniki hesabatlarda əldə olunmuş səmərə və nailiyyətlər xüsusi olaraq qeyd olunur.

Bütün bunlara əlavə olaraq təhlükəsiz olmasında təmiri ilə bərabər, sanitar-gigiyena baxımından təmizliyi də önəm kəsb edir. Bu məqsədlə Bakı Metropolitenində daha bir yenilik edilib. Belə ki, vaqonaltı avadanlıqların təmizlənməsi sahəsi yaradılıb. Həmçinin qatarların yuyulması sahəsi də müasir avadanlıqlarla tamamilə yenidən qurulub".

**Səbinə Hüseynli**

# "Dərsliklərin çətin dildə yazılmasının bir neçə səbəbi var"

*EKSPERT FİKRİ*



"Dərsliklərin çətin dildə yazılması və ciddi səhvlər olması ilə bağlı valideynlər və müəllimlərin narahatlıqları son illərdə təhsil mühitində geniş müzakirə mövzusudur. Bu problemlər şagirdlərin dərsliklərdən tam faydalana bilməməsinə, tədris prosesinin çətinləşməsinə və nəticədə öyrənmə keyfiyyətinin aşağı düşməsinə səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib. O bildirib ki, təhsil sahəsində dərsliklərin hazırlanması prosesi vacib və çoxşaxəli bir fəaliyyətdir, lakin dərsliklərin çətin və qəliz dildə yazılması bəzi əsas məsələlərə işarə edir: "Dərsliklərin çətin dildə yazılmasının bir neçə səbəbi var. Belə ki, bir çox dərsliklər akademik üslubda yazıldığı üçün, onların dili bəzən şagirdlər üçün çox mürəkkəb olur. Yazılı mətnlərin şagirdlərin yaş qrupuna və qavrama səviyyəsinə uyğun olmaması şagirdlərin dərs materialını anlamasını çətinləşdirir. Bu məsələ xüsusilə ibtidai siniflərdə daha böyük problem yaradır, çünki şagirdlər hələ mətnləri müstəqil şəkildə dərk etmə bacarığını inkişaf etdirməyiblər. Təhsil tədqiqatçısı John Sweller bu barədə qeyd edir: "Müəllimlər və dərslik yazarları şagirdlərin qavrama yükünü nəzərə almalıdırlar. Mətnlər sadə, aydın və yaş səviyyəsinə uyğun olmalıdır ki, şagirdlər öyrəndikləri məlumatı effektiv şəkildə dərk edə bilsinlər".

Daha mürəkkəb dillə yazılmış dərsliklər isə, bu qavrama yükünü artırır və uşaqların dərsi başa düşməsini çətinləşdirir. Digər tərəfdən bəzi dərsliklər beynəlxalq qaynaqlardan tərcümə edilərkən orijinal mənbənin dili və məzmunu olduğu kimi saxlanılır, nəticədə şagirdlər üçün əlçatmaz və qəliz bir mətn ortaya çıxır. Beynəlxalq təcrübəni öyrənmək vacib olsa da, tədris materiallarının lokal kontekstə uyğunlaşdırılması və şagirdlərin qavrama qabiliyyətinə uyğun şəkildə tərtib edilməsi əsas şərtdir. Tərcümə zamanı təhsil sistemi ilə bağlı fərqlər nəzərə alınmadıqda dərsliklərdə qeyri-müəyyənlik və səhvlər ortaya çıxır. Dərsliklərdə bəzən lazım olduğundan çox məlumat və detallara yer verilir. Bu, şagirdlərin əsas anlayışları mənimsəməsi əvəzinə lazımsız məlumatlarla yüklənməsinə gətirib çıxarır. Dərsliklərin əsas funksiyası şagirdləri düşünməyə və öyrənməyə yönəltmək olmalıdır, amma əksər hallarda çoxsaylı və dərin elmi terminlərlə yazılan mətnlər sadə tədris prosesini mürəkkəbləşdirir.

Dərsliklərin hazırlanması və keyfiyyətinə nəzarət prosesi, təhsil sisteminin əsas tərkib hissəsidir və bir sıra mərhələləri əhatə edir. Dərslik yazan müəlliflər pedaqoji və metodik biliklərlə yanaşı, şagirdlərin yaş və qavrama səviyyəsini nəzərə almalı olan mütəxəssislər olmalıdırlar. Dərsliklərin çətinliyi müəlliflərin dərs materialını həddindən artıq akademik üslubda yazması ilə əlaqədar olur. Təhsil tədqiqatçısı Paul Nation bu barədə qeyd edir:"Təhsil üçün yazılan mətnlər anlaşılan olmalı və şagirdlərin biliyi mərhələli şəkildə genişləndirilməlidir. Mətnlər sadə başlayıb, tədricən daha mürəkkəb anlayışlara keçid etməlidir."

Dərsliklərin tərtibi zamanı həmin dərsliklər müxtəlif ekspert qrupları tərəfindən qiymətləndirilməli və yoxlanmalıdır. Bu prosesdə dilçilər, pedaqoqlar və metodistlər də iştirak etməli və dərsliklərin dil səviyyəsini, məzmunun aydınlığını və metodikliyini qiymətləndirməlidirlər. Bu, həm də səhvlərin qarşısını almaq üçün vacib addımdır.

Yeni dərsliklərin tətbiqindən əvvəl onların pilot versiyaları müəyyən siniflərdə test edilməlidir. Şagirdlərin reaksiyası və nəticələri nəzərə alınaraq dərsliklər yenidən qiymətləndirilməli və lazımi düzəlişlər edilməlidir. Bu yanaşma, dərsliklərin daha yaxşı uyğunlaşdırılmasına və şagirdlər üçün faydalı olmasına imkan yaradar.

Valideynlər və müəllimlər dərsliklərin şagirdlər üçün uyğun olub-olmamasını ən yaxşı anlayan tərəflərdir. Onların rəyləri dərsliklərin hazırlanmasında nəzərə alınmalı və tədris materiallarının şagirdlər üçün anlaşılan olub-olmaması prosesinə təsir etməlidir. Dərsliklər hazırlanarkən və yenidən tərtib edilərkən bu cür rəylər təhlil olunmalı və tətbiq edilməlidir.

Dünyanın qabaqcıl təhsil sistemlərinə malik olan ölkələrdə dərsliklərin hazırlanmasında bir neçə mühüm prinsip tətbiq edilir. Məsələn, Finlandiyada dərsliklərin sadə və aydın dildə yazılması, şagirdlərin tədris prosesinə aktiv şəkildə cəlb edilməsi əsas məqsəd kimi götürülür. Finlandiya təhsil sistemi, dərsliklərin interaktivliyinə, şagirdlərin öz biliklərini tətbiq etməsinə və müxtəlif öyrənmə yolları təqdim edən metodik yanaşmalara əsaslanır. Bundan əlavə, Yaponiyada dərsliklər təkcə məzmun ötürmək məqsədi daşımır, həm də şagirdlərin problemləri həll etmə qabiliyyətlərini inkişaf etdirmək üçün nəzərdə tutulur. Bu dərsliklər qısa, anlaşılan və şagirdlərin yaş səviyyəsinə uyğun materiallarla zənginləşdirilir. Hər bir dərs müzakirə və təcrübə ilə bağlı praktiki tapşırıqlar əsasında qurulur.

Dərsliklərin çətin dildə yazılması və ciddi səhvlərin olması, şagirdlərin tədris prosesində effektivliyini azaldan vacib problemlərdən biridir. Bu problemlərin həlli, dərsliklərin daha sadə, anlaşılan və şagirdlərin inkişaf səviyyəsinə uyğun tərtib edilməsindən asılıdır. Dərsliklərin hazırlanması və yoxlanılması prosesi metodik qaydalara əsaslanmalı və həm ekspertlərin, həm də tədris prosesində iştirak edən müəllim və valideynlərin rəylərinə diqqətlə yanaşılmalıdır. Bu yanaşma, tədris keyfiyyətinin artırılmasına və şagirdlərin dərsliklərdən daha səmərəli istifadə etmələrinə kömək edəcəkdir".

**Səbinə Hüseynli**

# Qubadlı aqrar sektora yeni nəfəs gətirəcək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb*

## Qarabağın ən abad rayonu işğaldan xilas ediləndə tanınmaz halda idi






***Qubadlı rayonu 31 avqust 1993-cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal nəticəsində rayondan 29997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti yerləşdirilib. 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekti, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılıb və yararsız vəziyyətə salınıb. 1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılıb.***

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində 2020-ci il oktyabrın 25-də Qubadlının işğalına son qoyulub. Qubadlı rayonunun əsası 1933-cü ildə qoyulub, inzibati mərkəzi Qubadlı şəhəridir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aiddir. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, qərbdən Ermənistanla həmsərhəddir. Bazarçay (Bərgüşad), Həkəri, Kiçik Həkəri, Meydan dərəsi çayları və çoxlu bulaqlar rayonun əsas su mənbəyidir.

### Qubadlının iqtisadiyyatı və faydalı yataqları

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edir. Rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olub. Rayonda 2 üzümün ilkin emalı zavodu fəaliyyət göstərirdi. Süd-əmtəə fermalarının məhsulları yağ-pendir zavodunda emal olunurdu.

Qubadlı rayonu qiymətli faydalı qazıntı ehtiyatlarına malikdir. Rayonun ərazisi təbii dərman bitkiləri ilə də zəngindir. Qubadlı rayonunun Hacılı kəndində mişar daşı yatağı, Bərgüşad çayının sol sahilində yəşəm yatağı, Əliquluuşağı, Qundanlı, Muradxanlı və Başarat kəndlərində mərmərləşmiş əhəng daşı yataqları, o cümlədən Mollabürhan kəndinin cənubunda tuf daş yatağı, Xanlıq kəndində qumgil yatağı, Eyvazlı kəndində əqiq yatağı mövcuddur. İşğaldan öncə tam gücü işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda qonşu rayonlara da xidmət edirdi. İşğal zamanı zavod tamamilə dağıdılmışdı.

İnkubator-quşçuluq fabriki və balıqyetişdirmə vətəgəsi rayon əhalisini ət və balıq məhsullarıyla təmin edirdi. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəyirdi. Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun rayonda yaradılmış filialında son tamamlama işləri gedirdi. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərirdi.

Qubadlı rayonunda 21 rabitə müəssisəsi var idi. 8 avtomat stansiyası quraşdırılmışdı. 1950 nömrəlik həmin stansiyalar gecə-gündüz xalqın xidmətində idi. Rayonun 33 səhiyyə müəssisəsində 56 həkim və 511 orta tibb işçisi fəaliyyət göstərirdi. 4 xəstəxana, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 aptek əhalinin sağlamlığı keşiyində dururdu. Rayon gigiyena-epidemologiya mərkəzi və profilaktik dezinfeksiya şöbəsi yüksək səviyyədə iş aparırdı.

### Aqrar sektora Qubadlı dəstəyi

Aqrar sektorun inkişafı üçün Qubadlı rayonunun böyük potensialı var. Rayon yerli və xarici investorlar üçün münbit şəraitə malikdir. İşğaldan öncə rayonda ildə 15 min taxıl məhsulları, 12 min ton yem, 2 min ton tütün, 1.2 min ton ət və 2 min tona yaxın süd məhsulları istehsal olunurdu. Bu rayon dövlətə ildə 3 min ton üzüm satırdı. Dövrümüzün ən gəlirli kənd təsərrüfatı sahəsi hesab edilən baramaçılıq Qubadlı rayonunda uğurla inkişaf etdirilmişdi. Qubadlı işğaldan öncə hər il dövlətə 70 min ton barama təhvil verirdi.

Ekspertlər hesab edir ki, Qubadlının işğaldan azad edilməsi ilə Azərbaycan iqtisadiyyatının əkin dövriyyəsinə ən az 5 min hektar əkinə tam yararlı torpaq sahəsi qazandırdı ki, bunun da 3 min hektarında taxıl məhsulları, 1000 hektarlıq ərazidə isə yem məhsulları əkilməsi planlaşdırılıb. Bundan əlavə, rayonun 17 min hektardan artıq otlaq sahəsinin olması iri heyvan təsərrüfatlarının yaradılması üçün olduqca əlverişlidir. Daha dəqiq desək, bu rayonun imkanları ildə 70 min iri və xırdabuynuzlu heyvanın yemlənməsinə şərait yaradır ki, bu da ət məhsullarına görə Azərbaycanın region ölkələrindən etdiyi idxaldan asılılığını əhəmiyyətli dərəcədə azaldır.

Təbii yem və ot örtüyünün bol olması Qubadlı əhalisinin böyük əksəriyyətinin heyvandarlıqla məşğul olması üçün zəmindir. Yenidən qurulan Qubadlıda hər il 2 min tondan artıq ət və 18 min tondan artıq sd məhsullarının istehsal edilməsi planlaşdırılır.

### Mədəni Qubadlı - kitabxanası, muzeyi, abidələri...

İşğala qədər Qubadlı rayonunda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb fəaliyyət göstərirdi. Bundan əlavə bir əyani-qiyabi, bir orta texniki peşə və iki musiqi məktəbi də gənc nəslin təlim-tərbiyəsində xüsusi rol oynayırdı. Məktəbəqədər müəssisələrin sayı 7 idi. Bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. Onlardan 925 nəfəri ali təhsilli idi. 43 nəfər məktəbəqədər müəssisələrdə çalışırdı. 5852 nəfər şagird ümumtəhsil məktəblərində təhsil alırdı. Məktəbəqədər müəssisələrdə 272 azyaşlı tərbiyə olunurdu.

Qubadlıda 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi və 28 klab xalqa xidmət edirdi. 6 avtoklub fəaliyyət göstərirdi. 23 kino qurğusundan istifadə olunurdu. 125 ticarət, 96 iaşə obyekti qubadlılara mədəni xidmət göstərirdi. 25 məişət xidməti müəssisəsi tam gücüylə işləyirdi.



Qubadlı rayonunda ilk kitabxana 1936-cı ildən fəaliyyətə başlayıb. Mərkəzləşmə işi Qubadlı rayonunda 1980-ci ildə başa çatıb. Rayon Mərkəzi Kitabxanasında 4 şöbə var: Metodika və biblioqrafiya, Kitabişləmə və komplektləşdirilmə, Oxuculara xidmət, İnformasiya-resurs, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbələri fəaliyyət göstərib. 1993-cü ilin 31 avqust Qubadlının işğalı zamanı kitabxananın 82 kənd kitabxana filialında 89 nəfər kənd kitabxana işçisi, 40 nəfər mərkəzi kitabxana işçisi olub.

1993-cü il hesabatına görə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin fondunda 600 minə yaxın kitab fondu, 2 mərtəbəli 24 otaq, oxu zalı, 21300 oxucu kontingenti olub. Zəngəzur ərazisində ən qədim yaşayış məskəni Qubadlı rayonunun Balahəsənli kəndində aşkar edilib. Xatırladaq ki, IV əsrə aid edilən "Sığınacaq" tipli bu yaşayış yeri Daranlar deyilən ərazidə yerləşir. Qubadlının Muradxanlı kəndindəki V əsrə aid Qalalı, Əliquluuşağı kəndindəki Göy Qala abidələri, XIV əsrə aid Yazı Düzündəki Cavanşir türbəsi, Dəmirçilər kəndindəki iki türbə, XVII əsrə aid Gürcülü kəndində olan türbə, XVIII əsrə aid Aşağı Xocamusaxlı kəndində olan türbə ondan xəbər verir ki, Qubadlıda qədim dövrlərdən elm mədəniyyət mərkəzləri və ibadət edənlər olub.

Qubadlı rayon Tarix-diyarşünaslıq muzeyində 5 mindən çox nadir eksponat toplanıb. Qubadlının işğalı zamanı ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər, bütün eksponatlar vəhşicəsinə məhv edilib. Qubadlının 4-cü əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Balahəsənli kəndindəki "Cicimli ocağı", Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağac, Aşağı Xocamusaxlı kəndlərindəki digər tarixi abidələri var.

### Yenidən abad Qubadlı

Qubadlı üzrə həm aktiv tikintisi icra edilən, həm də layihələndirmə mərhələsində olan bir neçə tikililər var. O, deyib ki, Mahruzlu və Zilanlı kəndlərində tikinti işləri həyata keçirilir, rayon ərazisi işğalda olarkən dağıdılmış qaz, su, elektrik təchizatı yenidən bərpa edilir. Bu ilin birinci yarısında Qubadlının digər kəndi - Xanlıqda artıq şaquli planlama işlərinə başlanılıb. Muradxanlı, Hal, Həmzəli kəndlərində, həmçinin Qubadlı şəhər inzibati binasında, yaşayış kompleksində də layihələndirilmə işləri davam edir. Qubadlı şəhərindəki yaşayış kompleksinin tikintisinə bu ilin sonlarında start veriləcək.

Qubadlının məhv edilən yaşıl örtüyü də işğaldan azad olduğu gündən etibarən yenilənir. Kəsilmiş meşələri, məhv edilmiş bitki örtüyü yenidən boy qaldırır. Ümumiyyətlə, bütün işğaldan azad edilmiş rayonlarda yaşıllaşma ilə də bağlı böyük layihələr həyata keçirilir. O cümlədən, yol infrastrukturu əsaslı şəkildə yenidən qurulur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq Qubadlı-Eyvazlı avtomobil yolunun tikintisi aparılır, Qubadlı-Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisinin həyata keçirilməsi məqsədilə ötən il ölkə başçısının ehtiyat fondundan 20 milyon manat ayrılmışdı.

Ümumiyyətlə, Qubadlı rayonu yenidən qurularkən memarlıqda tarixi keçmişi də nəzərə alınıb. Tarixi Qubadlı yeni Qubadlının timsalında yaşadılır. Yeni infrastrukturda Qubadlı rayonu üçün böyük işlər həyata keçirilir. Onlardan biri də müqasir standartlarla inşa edilən dördzolaqlı yoldur. Bu yol Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcək, iqtisadiyyata dəstək olacaq.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
25 oktyabr
2024-cü il

# "Bir xanımın ən böyük rəqibi dost bildiyi xanımdır"



AYDINLIQ GƏTİRİLDİ

**"Depressiya ən çox yayılan psixoloji pozuntu olmaqla Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə inkişaf etmiş ölkələrdə vaxtında müalicə olunmadıqda ən çox əlilliyə səbəb olan 3 xəstəlikdən biridir". Bu sözləri SİA-ya açıqlamasında "Aura" psixologiya, nitq və fərdi inkişaf mərkəzinin direktoru, psixoloq, psixoterapevt, cinsəl terapist, yaşam və ilişki koçu Xanlar Sətullayev deyib.**

O bildirib ki, depressiya bir sıra ağır xəstəliklərin, xüsusilə onkoloji, mədə-bağırsaq sistemi xəstəlikləri, ürək-damar xəstəlikləri, artıq çəki problemi və s. yaranmasına səbəb ola bilər: "Təxminən hər 7 insandan biri həyatının hər hansı bir zamanında depressiv epizod keçirir. Hər bir insan zaman-zaman özünü kədərli və bədbəxt hiss edir. Sevdiyi işlə məşğul olmamaq, yaxud sevdiyi işindən, kollektivindən ayrılmaq, sevdiyindən rədd cavabı almaq, yaxud xəyanətlə üzləşmək, əvvəlki sevgi və diqqəti görməmək, itirmək və ya uğur qazana bilməmək, özünə və bədən üzvlərinə qarşı həddən artıq tənqidi yanaşmaq insanı motivasiyadan salan və depressiyaya aparan səbəblərdəndir. Qısaca hüzn normal həyatın bir parçasıdır, Ancaq bu hüznlü vəziyyətin uzanması və qeyri müəyyən səbəblə ortaya çıxması ruh sağlamlığı problemidir və depressiya olaraq təyin olunar. Depresiya duyğu, düşüncə və davranışa təsir edir. Depressiya zamanı daha çox rast gəlinən əlamətlər bunlardır: Əhval-ruhiyənin aşağı olması, zövq aldığınız işlərin artıq zövq verməməsi, maraqsız gəlməsi, insanın özünü günahkar hiss etməsi, əsəbilik, kiçik şeylərin həddindən artıq gərginləşdirməsi, yuxu pozulması (həddindən artıq yuxu istəyi və ya yuxusuzluq), günlərlə sürən yorğunluq hissi, adaptasiya pozulması, diqqətsizlik, ümidsizlik, iştahsızlıq, özgüvənin itməsi, ölüm və ya intihar barədə düşünmək".

Onun sözlərinə görə, bu cür düşüncələr insanın normal halda rahatlıqla edə biləcəklərini çətinləşdirir, həyat keyfiyyətini olduqca aşağı salır: "Depressiyaya hər yaşda rast gəlinə bilər. Lakin araşdırmalar göstərir ki, qadınlar daha çox və daha tez-tez depressiyaya düşürlər. Məsələn, yeniyetmələr arasında qızlar oğlanlara nisbətən depressiyadan daha çox əziyyət çəkirlər. Alimlərin fikrincə, bunun müxtəlif səbəbləri var. Əsas səbəblərdən bir neçəsini - bədənin formalaşması zamanı baş verən dəyişikliklər, hormon dəyişiklikləri və ya genetik faktorları misal çəkmək olar. Elm adamları qeyd ediblər ki, oğlanlara nisbətən qızlarda genetik faktorlar daha çox özünü büruzə verir. Bir çox hormonal amillər, həmçinin üzərinə düşən iş və ev vəzifələri, təkbaşına uşaq böyütmək, yaşlı valideynlərə qayğı göstərmək kimi əlavə stresslər qadınlarda depressiyaya səbəb ola bilər. Qadınların bir çoxu ana olduqdan sonra hormonal və fiziki dəyişikliklər, habelə yeni həyatın əlavə məsuliyyətinin təsiri ilə depressiyaya düşürlər. Əhvalın pisə doğru dəyişməsi yeni analar üçün adi bir hadisə olsa da, depressiv sindromun baş verməsi aktiv müdaxilə tələb edir. Bundan başqa bir çox hallarda qadınlar öz həmcinslərindən daha gözəl görünmək istəyirlər və bu zaman özgüvəni aşağı olan xanımlar başqa qadınları daha gözəl hesab edib depressiyaya düşə bilirlər. Qadınların depressiyaya düşmələrində dost və rəfiqə hesab etdikləri xanımların rolu da çox olur. Necə deyərlər, bir xanımın ən böyük rəqibi dost bildiyi xanımdır".

***Söylü Ağazadə***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Azərbaycan millisi FİFA reytinqində yenə gerilədi...



FİFA-nın yeni reytinq cədvəli açıqlanıb. Qurumun rəsmi saytında yer alan məlumatda deyilir ki , Azərbaycan millisi siyahıda 5 pillə geriləyib. Milli komanda hazırda 1161.8 xalla 118-ci pillədə qərarlaşıb. Siyahıya son dünya çempionu Argentina (1883,5) başçılıq edir. Fransa (1859,85) ikinci, İspaniya (1844,33) üçüncüdür.. Millətlər Liqasında Azərbaycan millisi ilə eyni qrupda yer alan İsveç 28-ci (mövqeyində dəyişiklik yoxdur), Slovakiya 41-ci (+1), Estoniya isə 124-cü (-2) yeri tutur.

# Səudiyyə Ərəbistanında 7 nəfər edam edilib



***Səudiyyə Ərəbistanında bir gündə 5-i narkotik alverçisi olmaqla ümumilikdə 7 nəfər edam edilib. SİA xarici KİV-ə istinadən xəbər verir ki, Səudiyyə mediası edam edilənlərdən 5-nin narkotik alverinə, 2-nin qətlə görə edam edildiyini, 4 nəfərin isə Yəmən vətəndaşı olduğunu bildirib.***

Bu il Səudiyyə Ərəbistanında ümumilikdə 236 nəfər edam edilib ki, onlardan 71-i narkotik alverinə görə olub. Beynəlxalq Amnistiya Təşkilatının məlumatına görə, Səudiyyə Ərəbistanı Çin və İrandan sonra 2023-cü ildə dünyada ən çox məhbusu edam edən üçüncü ölkə olub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700